# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Hərbi xidmətdə yaş həddi tətbiq olunmayan şəxslərin dairəsi genişlənir



4

SƏS

№ 055 (7223)

5 aprel 2025-ci il.
Qiymət 60 qəpik

# Avropanın enerji xəritəsini yenidən tərtib edən layihə





2

*Prezident İlham Əliyev: "Bizim qaz təchizatımızın Avropadakı coğrafiyası birmənalı olaraq genişlənəcək"*

# Trampın tarif sunamisi və...





5

## "O kəsləri deyib gəlmişəm ki... "



7

## Toy adətlərimiz: Unudulmağa qoymayaq!



10

## Diplomlu işsizlərin sayı niyə artır?



6

## Füzuli ədəbi məktəbinin layiqli davamçısı





13

## "Yenidən Avropa çempionu olmaq üçün mübarizə aparacam"



16

# Avropanın enerji xəritəsini yenidən tərtib edən layihə



## Prezident İlham Əliyev: "Bizim qaz təchizatımızın Avropadakı coğrafiyası birmənalı olaraq genişlənəcək"

***Xarici siyasətində dünya ölkələri, o cümlədən Avropanın böyük dövlətləri ilə əlaqələrini uğurla davam etdirən Azərbaycan əməkdaşlığa böyük önəm verməklə etibarlı və sınanmış tərəfdaş olduğunu bir daha təsdiqləyir. Müasir dünyada Azərbaycan Avropanın enerji mənbələrinin diversifikasiyasında və enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.***



Aprelin 4-də paytaxtımızda, "Gülüstan" sarayında keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları əlbəttə ki, dövlətimizin enerji siyasətində strateji mərhələ olmaqla yanaşı, ölkəmizin regional və qlobal enerji bazarlarında artan rolunu bir daha nümayiş etdirir.

Qeyd edək ki, Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasların Azərbaycan və Avropa İttifaqı daxil olmaqla, 24 ölkə, 7 beynəlxalq maliyyə institutu və 42 enerji şirkəti qatılıb. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr iştirak ediblər.

### "AZƏRBAYCAN TƏBİİ QAZI 12 ÖLKƏYƏ ÇATDIRIR"

Müasir dünyada Azərbaycan qazına dünya bazarında böyük tələbatın olduğundan qaz təchizatının şaxələndirilməsi istiqamətində addımlar atılıb. Ölkəmizdə Avropa İttifaqının qaz təchizatı sahəsində fəal işi, eləcə də Aİ ilə Azərbaycan arasında imzalanmış Enerji sahəsində Strateji Tərəfdaşlıq sənədi əhəmiyyət kəsb edir. Bir sıra Avropa ölkələri üçün enerji təhlükəsizliyi, həmçinin Cənub Qaz Dəhlizi vasitəsilə təmin edilir. Müasir dünyada Avropa İttifaqı bazarına Azərbaycanın təbii qaz ixracı artır. "Bu gün Azərbaycan təbii qazı 12 ölkəyə çatdırır. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqının üzvləridir". Bu sözləri Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında söyləyib. "Bizim qaz təchizatımızın Avropadakı coğrafiyası birmənalı olaraq genişlənəcək, çünki biz artıq qazpaylama şəbəkəsinin yaradılmasında bəzi Avropa ölkələrində işləyirik. Onların bəzilərində yoxdur, digərləri isə genişləndirilməlidir. Azərbaycan bunu etməyi planlaşdırır. Beləliklə, bizim qaz təchizatının coğrafiyası birmənalı olaraq genişlənəcək".

### AZƏRBAYCANIN UĞUR HEKAYƏSİ

Cənub Qaz Dəhlizi layihəsi Azərbaycanın enerji diplomatiyasının ən uğurlu nümunələrindən biridir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən bu layihə ölkəmizin Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşa çevrilməsinə imkan yaradıb.

Cənub Qaz Dəhlizi qaz tədarükünü ikiqat artırmaq potensialına malikdir, Əlbəttə ki, qaz təchizatının şaxələndirilməsi istiqamətində atılan addımlar çox vacibdir. Cənub Qaz Dəhlizi qaz tədarükünü ikiqat artırmaq potensialına malikdir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bu layihə həqiqətən də uğur hekayəsidir. Bu, Avrasiyada ən böyük infrastruktur layihələrindən biridir". Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir: "Çünki Cənub Qaz Dəhlizinin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı".

### BEYNƏLXALQ ENERJİ BAZARINDA ETİBARLI TƏRƏFDAŞ

Vurğulamaq yerinə düşər ki, bu layihənin gerçəkləşməsi uzun və çətin bir proses olub. Dəhlizin təməli 1997-ci ildə qoyulsa da, 2003-cü ildə onun iqtisadi cəhətdən səmərəsiz ola biləcəyi ilə bağlı ehtimallar, həmçinin xarici təzyiqlər və müxtəlif bürokratik maneələr layihənin həyata keçirilməsini çətinləşdirdi. Lakin Prezident İlham Əliyevin siyasi iradəsi və strateji baxışı nəticəsində bu maneələr aradan qaldırıldı və layihə yeni inkişaf mərhələsinə keçdi. 2013-cü ildə Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin dörd layihəsi – "Şahdəniz", "Cənub Qafqaz Boru Kəməri", TANAP və TAP-ın genişləndirilməsi ilə bağlı Sərəncam imzaladı. Məhz bundan sonra Cənub Qaz Dəhlizi tam gücü ilə işlək vəziyyətə gətirildi və Azərbaycan qazının Avropaya çatdırılmasına başlanıldı.

2014-cü ildə layihənin daha sistemli və effektiv idarə olunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin Sərəncamı ilə "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Bu qurum layihənin maliyyələşdirilməsi, idarə olunması və inkişaf etdirilməsi ilə bağlı mühüm funksiyalar yerinə yetirir. 2015-ci ildən etibarən isə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantıları mütəmadi olaraq keçirilməyə başladı. Bu görüşlər layihənin beynəlxalq səviyyədə əlaqələndirilməsinə, tərəfdaş ölkələrlə əməkdaşlığın gücləndirilməsinə və Cənub Qaz Dəhlizinin uzunmüddətli dayanıqlığının təmin edilməsinə xidmət göstərir. Azərbaycanın uğurlu enerji strategiyası nəticəsində bu layihə tam gücü ilə işləyir, ölkəmiz beynəlxalq enerji bazarında etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir.

### "İNDİ CƏNUB QAZ DƏHLİZİ TAM GÜCÜ İLƏ İŞLƏYİR"

Qeyd edək ki, Cənub Qaz Dəhlizinin bir hissəsi kimi tikilən TANAP-ın Avropa hissəsi olan TAP-ın illik ötürmə qabiliyyəti 10 milyard kubmetr qiymətləndirilir və bu kəmərin ötürücülük qabiliyyətinin iki dəfə artırılması nəzərdə tutulur. Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında bildirib:"İndi Cənub Qaz Dəhlizi tam gücü ilə işləyir. Cənubi Qafqaz Boru Kəməri, TANAP, TAP həmin bu dəhlizin 3 ayrılmaz hissəsidir". "Onlar tam iş gücündə işləyir və biz onları genişləndirməliyik", - deyən dövlətimizin başçısı əlavə edib.

Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün olan Cənub Qaz Dəhlizinin reallaşması nəinki region, bütün Avropa üçün ən vacib təşəbbüslərdən biridir. Sirr deyil ki, qaz axını Avropaya Cənub Qaz Dəhlizindən gedir. "Azəri-Çıraq-Günəşli", "Abşeron" və "Şahdəniz" bir çox ölkələrin enerji təhlükəsizliyinə töhfə verir.

"Bir neçə ildən sonra bir çox digər neft-qaz yataqlarının da istismarına başlanacaq ki, onlarla bağlı müqavilələr artıq imzalanıb, işçi proqram həyata keçirilir. Boru kəmərlərinin çəkilməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft boru kəmərləri və həmçinin Cənubi Qafqaz Boru Kəməri bütün iştirakçılarla birlikdə görülmüş işlərin nəticəsidir", - deyə Prezident bildirib.

*Ardı Səh. 3*

# Avropanın enerji xəritəsini yenidən tərtib edən layihə




Əvvəli-Səh-2

### “AZƏRBAYCAN QAZI YENİ MƏNBƏDİR VƏ CƏNUB QAZ DƏHLİZİ YENİ ENERJİ DAMARIDIR”

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin inkişafında və həyata keçirilməsində liderlik edib. Dövlətimizin başçısı dəfələrlə bu layihənin mühüm əhəmiyyətini vurğulayaraq, Azərbaycanın Avropanın etibarlı enerji tərəfdaşı olduğunu bəyan edib. 2018-ci ildə Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimindəki çıxışı zamanı Prezident Əliyev layihənin əhəmiyyətini bu sözlərlə ifadə edib: ”Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır.

Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və Cənub Qaz Dəhlizi yeni enerji damarıdır, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir”.

### “ENERJİ TƏHLÜKƏSİZLİYİ MİLLİ TƏHLÜKƏSİZLİYİN, ÖLKƏLƏRİN TƏHLÜKƏSİZLİYİNİN AYRILMAZ BİR HİSSƏSİDİR”

Azərbaycanın qlobal enerji bazarında oynadığı strateji rolu açıq-aydın görünür. Bu möhtəşəm layihə enerji təhlükəsizliyi, mənbələrin və marşrutların şaxələndirilməsi, eləcə də qlobal enerji bazarında balansın təmin edilməsi baxımından da mühüm əhəmiyyət daşıyır. ”Bu gün heç vaxt olmadığı qədər enerji təhlükəsizliyi milli təhlükəsizliyin, ölkələrin təhlükəsizliyinin ayrılmaz bir hissəsidir və bu gün biz, həmçinin sənaye təhlükəsizliyi haqqında danışa bilərik”, - deyə dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasında bildirib. Dövlətimizin başçısı qeyd edib: ”Çünki sənayeni inkişaf etdirmək üçün bizə enerji ehtiyatları, neft-kimya məhsulları, gübrələr lazımdır. Azərbaycan isə xam neftin, təbii qazın, neft məhsullarının və gübrələrin istehsalçısı və ixracatçısıdır”.




Azərbaycan yaşıl enerji sahəsində də uğurlu layihələr həyata keçirərək, bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində mühüm addımlar atır. Bərpaolunan və yaşıl enerji əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanğıcıdır. Ölkəmizdə energetika sahəsində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülüb və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bu enerjinin payının 30 faizə çatdırılması hədəf kimi müəyyənləşdirilib.

Xəzər dənizinin külək enerjisi potensialından istifadə edərək ölkəmiz təkcə daxili tələbatı ödəməyi deyil, həm də Avropaya yaşıl enerji ixracını hədəfləyir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ”yaşıl enerji zonası” elan edilməsi bu istiqamətdə atılan mühüm addımlardandır. Günəş və külək enerjisi layihələrinin genişləndirilməsi, su elektrik stansiyalarının modernləşdirilməsi və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın dərinləşdirilməsi Azərbaycanın bu sahədəki strateji məqsədlərindən biridir. Dövlət başçısının həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan yalnız qaz ixracatçısı kimi deyil, eyni zamanda, yaşıl enerji mənbələrinə sərmayə yatıran ölkə kimi də mövqeyini möhkəmləndirir. Ölkəmiz yaşıl enerji sahəsində böyük potensiala malikdir və qarşıdakı illərdə bu sahənin inkişafı üçün daha böyük addımlar atmağı planlaşdırır.

### “İNVESTİSİYALARIMIZLA HİDROENERJİ POTENSİALIMIZI ARTIRIRIQ, XÜSUSƏN DƏ ERMƏNİSTANIN İŞĞALINDAN AZAD EDİLMİŞ ŞƏRQİ ZƏNGƏZUR VƏ QARABAĞ BÖLGƏLƏRİNDƏ”

Ölkəmiz, həmçinin 2050-ci ilə qədər karbon emissiyalarını minimuma endirməyi və enerji sektorunda bərpaolunan mənbələrin payını əhəmiyyətli dərəcədə artırmağı qarşısına məqsəd qoyub. Bu hədəflər Azərbaycanın təkcə regionda deyil, qlobal enerji bazarında da mövqeyini möhkəmləndirəcəyini göstərir. ”Biz deyə bilərik ki, Azərbaycan enerji təhlükəsizliyində tərəfdaşlıq üçün daha mühüm rol oynayacaq”, - deyə Prezident diqqətə çatdırıb.

Bu gün artıq investorlarımızla imzalanmış müqavilələrin olduğunu söyləyən dövlətimizin başçısı vurğulayıb:”Bu, Günəş və Külək enerji stansiyalarına aid olan müqavilələrdir ki, 2030-cu ilə qədər 6 giqavat günəş və külək enerjisi təmin edəcək. Qeyd edirəm ki, nəticədə xeyli təbii qaza qənaət etmək imkanı yaranacaq ki, hazırda həmin qaz ölkə daxilində elektrik enerjisinin istehsalı üçün istifadə olunur və ixraca yönəldiləcək. Biz, eyni zamanda, öz investisiyalarımızla hidroenerji potensialımızı artırırıq, xüsusən də Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur və Qarabağ bölgələrində”.

Cənub Qaz Dəhlizi yalnız infrastruktur layihəsi kimi deyil, həm də qlobal enerji bazarında balans yaradan və uzunmüddətli perspektivdə strateji önəm daşıyan uğur modeli kimi dəyərləndirilir. Azərbaycan bu gün dünyanın enerji xəritəsini dəyişdirən ölkələrdən biri kimi çıxış edir. Cənub Qaz Dəhlizi sayəsində ölkəmiz Avropanın enerji təhlükəsizliyinə töhfə verən əsas tərəflərdən birinə çevrilib. Son illərdə Azərbaycanın bu sahədə qazandığı uğurlar və atdığı strateji addımlar layihənin dayanıqlılığını daha da möhkəmləndirib. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycanın həyata keçirdiyi enerji siyasəti uzaqgörən və davamlı inkişaf prinsiplərinə əsaslanır.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan – etibarlı və mühüm tərəfdaş!




## *Prezident İlham Əliyev Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarını və Türkiyənin enerji və təbii sərvətlər nazirini qəbul edib*

Prezident İlham Əliyev aprelin 4-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak edən Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgenseni qəbul edib. Prezident İlham Əliyev Azərbaycan ilə Avropa Komissiyası arasında qarşılıqlı etimada əsaslanan əməkdaşlığın uzun və uğurlu tarixinin olduğunu dedi, bunun xüsusilə hazırkı dövrdə enerji məsələlərinin mühüm amilə çevrilməsində rolunu vurğuladı. Dövlətimizin başçısı enerji sahəsində Avropa bazarının bizim üçün əsas bazar olduğunu qeyd edərək, Azərbaycanın bu bazarda ixrac coğrafiyasını genişləndirmək istədiyini bildirdi. Dan Yorgensen ilk növbədə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Ursula Fon der Lyayenə çatdırmağı xahiş etdi. Qonaq xüsusilə bu mürəkkəb zamanda Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə görə minnətdarlığını bildirərək vurğuladı ki, ölkəmizlə əməkdaşlığa çox böyük önəm verirlər və bunu gələcəkdə də inkişaf etdirmək istəyirlər.

Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarı COP29-un ölkəmizdə uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Söhbət zamanı həm təbii qaz, həm də yaşıl enerji sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Bildirildi ki, Avropa İttifaqı öz imkanları çərçivəsində bu istiqamətlər üzrə əməkdaşlığa dəstək verməyi düşünür. Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında enerji dialoqunun uğurla aparıldığı vurğulandı, bunun gələcəkdə də davam edəcəyinə ümidvarlıq bildirildi.

Azərbaycan Prezidenti İlham Əliyev dünən həmçinin Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak edən Türkiyə Respublikasının enerji və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib. Görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əlaqələrin genişləndirilməsi, o cümlədən hidrokarbonatlar və elektrik enerjisi sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, bunun gələcəkdə daha da inkişaf etdirilməsi üçün böyük imkanların olduğu qeyd edildi. SOCAR ilə Türk Petrolları və BOTAŞ arasında əməkdaşlıq müsbət qiymətləndirildi, bu birgə fəaliyyətin gələcəkdə Azərbaycan, Türkiyə və digər ölkələrdə həyata keçirilməsi məsələsi müzakirə olundu. Elektrik enerjisinin ixracı məsələsinə toxunuldu, bu xüsusda SOCAR-ın artıq Türkiyəyə satışlar həyata keçirdiyi vurğulandı.

Bu gün "AzərEnerji" ASC ilə Türkiyənin Elektrik Ötürülməsi Anonim Şirkəti (TEİAŞ) arasında Naxçıvandan 75 meqavat həcmində elektrik enerjisinin ixracı ilə bağlı imzalanacaq sənədin əhəmiyyəti qeyd edildi, Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında yaşıl enerji sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı memorandumun imzalanacağı bildirildi.

# İordaniya mətbuatı Azərbaycanın üzləşdiyi mina problemindən yazıb




Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun "Ermənistanın Azərbaycana qarşı təcavüzünün yaralarının sağalması: Mina təhlükəsi ilə mübarizə" başlıqlı məqaləsi 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü münasibətilə İordaniya mətbuatında geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, məqalə Xarici İşlər Nazirliyinin "Diplomatiya Aləmi" jurnalının xüsusi buraxılışına istinadla nəşr edilib. Məqalədə Ermənistanın Azərbaycana qarşı törətdiyi mina terroru, 3400 nəfərin məhz minaların partlaması nəticəsində həyatlarını itirməsi, ərazilərimizin minalarla çirkləndirilməsi ilə əlaqədar keçmiş məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmalarında çətinliklərlə üzləşməsi və digər bu kimi məsələlər qeyd olunub.

Həmçinin vurğulanıb ki, Ermənistanın mina xəritələrini verməkdən imtina etməsi Azərbaycanda minalarla mübarizə işini çətinləşdirib. İşğalçı ölkə beynəlxalq təzyiq altında cəmi 25 faiz dəqiqliyi olan mina xəritələrini təqdim edib və Vətən müharibəsindən sonra qeydə alınan mina partlayışları bu natamam xəritələrdə göstərilməyən ərazilərdə baş verib. Bu isə Ermənistan tərəfindən insan həyatına və beynəlxalq humanitar hüquqa qarşı nümayiş olunan etinasızlığın bariz nümunəsidir.



Məqalədə Azərbaycanda minatəmizləmə işlərinin 90 faizdən çoxunun milli resurslar hesabına maliyyələşdirildiyi də bildirilib. Eyni zamanda, sülhə, insan haqlarına və təhlükəsiz həyata dəstək olmaq üçün Azərbaycanda minatəmizləmə işlərinin daha da gücləndirilməsi və intensivləşdirilməsi işlərinə beynəlxalq dəstəyin gücləndirilməsinin vacibliyi vurğulanıb.

# Hərbi xidmətdə yaş həddi tətbiq olunmayan şəxslərin dairəsi genişlənir



Hərbi xidmətdə son yaş həddinin müəyyən edilmədiyi şəxslərin dairəsi genişləndirilir. Bu, Milli Məclisin Müdafiə, Təhlükəsizlik və Korrupsiya ilə Mübarizə Komitəsinin bu gün keçirilən iclasında "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna təklif edilən dəyişikliklərdə öz əksini tapıb.

Layihəyə uyğun olaraq, ordu generalı və müvafiq icra hakimiyyəti orqanının təyin etdiyi orqanların (qurumların) rəhbərləri və müavinləri üçün yaş həddinin müəyyən olunmaması təklif edilir. Bu dəyişiklik Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumlar istisna olmaqla) rəhbərlərinə də aiddir. Başqa sözlə, Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin edilən müvafiq dövlət orqanlarının rəhbərləri və müavinləri üçün də son yaş həddi tətbiq edilməyəcək. Həqiqi hərbi xidmətdə və ya ehtiyatda olmağın son yaş həddini keçən şəxslər isə vəzifələrindən azad olunduqdan sonra yaşa görə ehtiyata buraxılacaqlar.

*ABŞ-ın dünya ölkələrinə tətbiq etdiyi tariflər qlobal iqtisadiyyat üçün əhəmiyyətli risk yaradır. Bunu Beynəlxalq Valyuta Fondunun (BVF) icraçı direktoru Kristalina Georgiyeva yazılı açıqlamasında bildirib: "Biz hələ də elan edilmiş tarif tədbirlərinin makroiqtisadi nəticələrini qiymətləndiririk, lakin onlar yavaş artım dövründə qlobal iqtisadi perspektiv üçün açıq şəkildə əhəmiyyətli risk yaradır. Qlobal iqtisadiyyata daha çox zərər verə biləcək addımlardan qaçmaq vacibdir".*

# Trampın tarif sunamisi və...




### Qlobal iqtisadi artımdan tənəzzülə

Prezident Donald Trampın ABŞ-ın ticarət tərəfdaşlarına tarif hücumu beynəlxalq ticarəti zəiflədir və qlobal iqtisadiyyatı tənəzzülə sürükləyir. ABŞ Maliyyə Nazirliyi xəbərdarlıq edir ki, ABŞ ilə əhəmiyyətli ticarət profisiti olan bütün ölkələr ən çox zərbə alacaq. Tramp qarşılıqlı ticarətin mikroskopik həcmlərinə görə Rusiya üçün gömrük tariflərini qaldırmayıb. Lakin Rusiya iqtisadiyyatı da əsas yerli ixrac mallarına tələbin azalması səbəbindən qlobal tənəzzüldən əziyyət çəkəcək. Cümə axşamı neft fyuçersləri 7% ucuzlaşmaya yaxınlaşır.

ABŞ-ın maliyyə naziri Scott Bessent digər ölkələri Trampın görünməmiş yeni tariflərinə cavab verməməyə və "geri oturmağa" çağırıb. "Ticarət tarixi ondan ibarətdir ki, biz kəsirli ölkəyik. Kəsiri olan ölkənin üstünlüyü var. "Ənənəvi olaraq, profisiti olan ölkələr istənilən ticarət eskalasiyasında həmişə uduzurlar. Bu, qlobal iqtisadiyyat üçün dönüş nöqtəsidir", - deyə o bildirib. "Bir çox ölkələrin tənəzzüllə üzləşməsi ehtimalı var" deyə "Fitch Ratings"-in iqtisadçısı Olu Sonola deyib. "Əgər bu tariflər uzun müddət qüvvədə olarsa, proqnozların əksəriyyətini rədd edə bilərsiniz". "Fitch" ekspertləri Çin iqtisadiyyatı üçün kredit riskinin qiymətləndirilməsinin pisləşməsini dövlət maliyyəsinin vəziyyətinin ehtimal olunan pisləşməsi və ölkənin dövlət borcunun sürətlə artması ilə izah edirlər.

"Fitch" ekspertləri hesab edirlər ki, hakimiyyət orqanları zəif daxili tələb, artan ticarət tarifləri və deflyasiya təzyiqi kontekstində iqtisadi artımı dəstəkləmək üçün fiskal stimuldan istifadə etməyə davam edəcək. Bu amillər, gəlir bazasının struktur pisləşməsi ilə birlikdə Çinin yüksək büdcə kəsirini qoruyacaq. "Fitch" Çinin büdcə kəsirinin 2024-cü ildə ÜDM-in 6,5%-dən 2025-ci ildə ÜDM-in 8,4%-nə qədər artacağını proqnozlaşdırır. Bu kəsir agentliyin "A" reytinqində olan ölkələr üçün ÜDM-in orta hesabla 2,7%-dən əhəmiyyətli dərəcədə yüksəkdir. Nəzərə almaq lazımdır ki, bu, hələ də tənəzzüldən çox uzaqdır, buna görə də ən böyük iqtisadiyyatların yeni şərtlərə uyğun olaraq ticarət axınlarını sürətlə yenidən qura bilməsi şansı var və Çin ABŞ-ın "qarşılıqlı tariflərinə" qəti şəkildə qarşıdır və onun hüquqlarını və maraqlarını qorumaq üçün həlledici tədbirlər görəcək.

Axios xəbərdarlıq edir ki, 2024-cü ildə ABŞ 3,3 trilyon dollarlıq mal idxal etdi, əgər yeni tariflər orta hesabla 29% olarsa, idxalçılar ildə təxminən 1 trilyon dollar rüsum ödəməli olacaqlar. Buna görə də, bir çox mallar sadəcə olaraq ABŞ-a idxal edilməyəcək. Bu, qıtlığa və daxili qiymətlərin artmasına gətirib çıxaracaq. ABŞ idxalının azalması qlobal iqtisadi sabitliyin pozulmasına gətirib çıxaracaq. Bu, xüsusilə Almaniya və Çin kimi ixracdan asılı ölkələr üçün doğrudur. Çindən ABŞ-a idxal edilən 54% ümumi tarif amerikalılar arasında yoxsulluğun əhəmiyyətli dərəcədə artması ilə təhdid edir. Amerika ixracatında da azalma təhlükəsi var. Əgər ABŞ-ın əsas ticarət tərəfdaşları tənəzzülə uğrasalar, o zaman Amerika istehsalı olan mallara tələb təbii olaraq azalacaq.

Donald Tramp ABŞ-a idxala tariflərin artırılmasının büdcəyə daha çox vəsait cəlb edəcəyini və şirkətləri istehsalı ABŞ-a köçürməyə təşviq edəcəyini gözləyir, bununla belə, onun hərəkətləri ABŞ-da daha yüksək inflyasiyaya, zəif iqtisadi artıma və ehtimal ki, resessiyaya səbəb olacaq. Prezident Donald Trump Rusiya bazarı üçün Asiya ölkələri arasında rəqabəti artıra bilər ki, bu da ölkəyə tədarük edilən sənaye avadanlıqlarının qiymətlərini azaltmağa kömək edəcək.

Tarif müharibəsi ilk hesablamalara görə, təkcə qarşıdakı dörd illik müffətdə Aİ-yə 750 milyard avroya başa gələcək. Hazırda yenidən silahlanma üçün, 800 milyard avro lazımdır. Bu 800 milyardı indi axtarmaq xüsusilə asan və xüsusilə xoş olacaq. Yer kürəsində kimin yaxın gələcəkdə hansı qüvvə ilə vurulacağı ayrı və çoxşaxəli söhbətdir. Amma konkret olaraq Avropaya gəlincə, 2000-ci illərin ortalarına qədər geri qaytarıla bilməyəcək qədər itirilmiş cənnəti daim xatırlayacaqlar. Dünya Trampın Ağ Evin Qızılgül bağçasındakı çıxışından yaxşı dərs ala bilər.

### Hər şeyin alt-üst olduğu bir dünya

ABŞ-ın yeni idxal tariflərinin tətbiqinə dünyanın reaksiyası ABŞ prezidenti Donald Tramp xarici ticarət tərəfdaşlarına güzgü tarifləri tətbiq ediləcəyini açıqlayıb.

**Dünya liderlərinin buna reaksiyası:**

Ursula von der Leyen, Avropa Komissiyasının sədri: "Nəticələr dünyada milyonlarla insan üçün dəhşətli olacaq".

Entoni Albanese, Avstraliyanın Baş naziri: "Dostlar bunu etməzlər. Bundan sonra atacağımız addımlarda ehtiyatlı olmalıyıq".

Kristin Laqard, Avropa Mərkəzi Bankının prezidenti: "Biz özümüzü hər şeyin alt-üst olduğu bir dünyada tapırıq".

Şigeru İşiba, Yaponiyanın Baş naziri: "Bizim bu tədbirlərin ÜTT Müqaviləsi və Yaponiya-ABŞ Ticarət Sazişi ilə uyğunluğu ilə bağlı ciddi narahatlığımız var".

Keir Starmer, Böyük Britaniyanın Baş naziri: "Mən, həqiqətən də, ABŞ-la ticarət müharibəsinə dərhal qarışmağın müdrik olduğunu düşünmürəm".

Donald Tusk, Polşanın Baş naziri: "Dostluq tərəfdaşlıq deməkdir. Tərəfdaşlıq həqiqətən qarşılıqlı tariflər deməkdir. "Adekvat həll yolları lazımdır".

Robert Habeck, Almaniya iqtisadiyyat naziri: "Donald Tramp təzyiq altında güzəştə gedir, bəyanatlarını təzyiq altında düzəldir və məntiqi cavab ona bu təzyiqi hiss etdirməkdir".

Çin Xalq Respublikasının Ticarət Nazirliyi: "Çin ABŞ-ı dərhal birtərəfli gömrük rüsumlarını qaldırmağa və ticarət tərəfdaşları ilə mübahisələri ədalətli dialoq yolu ilə düzgün şəkildə həll etməyə çağırır".

Qwede Mantashi, Cənubi Afrikanın Mineral Ehtiyatlar və Energetika Naziri: "Ölkənin inkişaf səviyyəsi zorakılıq üçün əsas olmamalıdır. Hər bir ölkə hücuma məruz qalmadan öz potensialına görə böyümə və inkişaf edə bilməlidir... Bizim qitəmizdə faydalı qazıntılar var. Biz bir növ dilənçi deyilik".

Trampın yeni tarif siyahısına Rusiya daxil deyil

Donald Trampın "Azadlıq günü" bütün dünyada geniş işıqlandırılır. Artıq siyahıda Rusiyanın olmaması və Ağ Evin buna qəribə izahı da qeyd olunub. Bəzi ölkələr artıq öz mənfəətlərini axtarırlar. Bununla belə, əksər müşahidəçilər yeni tarifləri bütövlükdə qlobal ticarət üçün təhlükə kimi qiymətləndirirlər.

***V.VƏLİYEV***

# YAP Mərkəzi Aparatında görüş keçirilib

*Aprelin 4-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ölkəmizdə səfərdə olan Venesuela Bolivar Respublikası Milli Assambleyası sədrinin müavini, Venesuela-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri, Venesuela Vahid Sosialist Partiyasının Gənclər Təşkilatının üzvü Amerika Valentina Peres Davila ilə görüşüb.*

Bəxtiyar İslamov YAP Gənclər Birliyinin fəaliyyəti barədə ətraflı məlumat verib. O, partiyanın Gənclər Birliyinin beynəlxalq əlaqələrindən bəhs edərək müxtəlif ölkələrin siyasi partiyalarının gənclər təşkilatları ilə fəal əməkdaşlığın həyata keçirildiyini vurğulayıb. B.İslamov bu səfərin iki ölkənin gəncləri arasında əlaqələrin inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirib.

Amerika Valentina Peres Davila Venesuela Vahid Sosialist Partiyasının Gənclər Təşkilatı haqqında ətraflı məlumat verərək Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi ilə çoxşaxəli əməkdaşlığın qurulması istiqamətində birgə fəaliyyətə hazır olduqlarını bildirib. O, hər iki partiyanın gənclər təşkilatının beynəlxalq müstəvidə səmərəli işbirliyi imkanlarının olduğunu bildirib. Görüşdə gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.



# “Almaniya ölkəmizin regionda lider mövqeyini dəstəkləyir”



***“Almaniya Azərbaycanın Avropadakı vacib siyasi-iqtisadi tərəfdaşlarından biridir və bu baxımdan da Almaniya Prezidentinin Azərbaycana səfəri xüsusi əhəmiyyət daşıyır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.***

Onun sözlərinə görə, sözsüz ki, Almaniya prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana rəsmi səfəri, iki ölkə arasındakı əlaqələrin güclənməsi üçün yeni imkanlar açır: "Onu da qeyd edim ki, bu səfər Almaniya Prezidenti Ştaynmayerin ölkəmizə ilk səfəri deyil. Ştaynmayer bundan əvvəl də Almaniya Xarici İşlər naziri qismində bir neçə dəfə ölkəmizdə səfərdə olub. 2007-ci ildə Azərbaycanda olarkən Ştaynmayer Azərbaycan və Almaniya arasında enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq sahəsində və ümumiyyətlə Azərbaycan və Almaniya arasında münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyi ilə bağlı mövqedən çıxış edib. Sonrakı dövrdə, yəni 2014-cü ildə ölkəmizə səfəri çərçivəsində isə daha çox Qarabağ məsələsinin həlli prosesinə dəstək vermək və tərəflər arasında dialoqu təşviq etməklə bağlı Almaniyanın mövqeyini ortaya qoyub. İndi də bu və ya digər şəkildə Cənubi Qafqazda öz maraqlarını təmi etməyə cəhdlər edən Almaniya həm Ermənistana, həm də Azərbayana səfərləri ilə, eləcə də səfər çərçivəsində verdiyi sülhə çağırışlarla bağlı bəyantları ilə ölkəsinin sülh prossesində iştirakına nail olmaq istəyir. Almaniya uzun müddətdir ki, sülh prosesində aktiv rol oynamağa çalışır. Ştaynmayerin hər iki ölkəyə eyni vaxtda səfər etməsinə də bu siyasətin tərkib hissəsi kimi baxmaq lazımdır.

Prezident Frank-Valter Ştaynmayerin səfəri onu sübut edir ki, Almaniya Azərbaycanı Cənubi Qafqazda vacib tərəfdaş kimi qəbul edir, ölkəmizin regionda lider mövqeyini dəstəkləyir. Almaniya Prezidenti səfər zamanı bir daha ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü tam dəstəklədiyini ifadə etdi. Azərbaycanla Almaniya arasında təhsil, səhiyyə sahələri üzrə əməkdaşlıq da yüksələn xətlə inkişaf edir. Məlumdur ki, ölkəmizdə alman dilinə böyük maraq var. Bu məsələyə Almaniya Prezidenti çıxışında da toxundu. Belə ki, alman dili ölkəmizdə bir sıra orta və ali təhsil müəssisələrində tədris olunmaqdadır. Bundan başqa, ölkələrimiz arasında səhiyyə sahəsində də əməkdaşlıq genişlənməkdədir. Hazırda Almaniyada tibb sahəsində təhsil alan xeyli tələbəmiz də vardır. Azərbaycan Almaniya şəhərləri arasında da əlaqələr inkişaf etdirilir. Belə ki, paytaxt Bakı ilə Mayns, Sumqayıt ilə Lüdviqşafen şəhərləri qardaşlaşmış şəhərlər elan olunublar.

Səfərin yekunları ilə bağlı keçirilən mətbuat konfransında ölkə başçısı Azərbaycanın 30 il ərzində erməni işğalından əziyyət çəkməsi, beynəlxalq təşkilatların bu münaqişəyə ciddi müdaxilə etməməsi və ölkəmizin öz gücü ilə ədaləti bərpa etməsini bird aha xüsusilə vurğuladı. Prezidentin də qeyd etdiyi kimi Qarabağ Zəfəri regionda sülh prosesini sürətləndirdi və bu gün Azərbaycan-Ermənistan münasibətləri daha konstruktiv müstəviyə keçməkdədir. Ümumiyyətlə isə hər iki ölkə rəhbərinin çıxışı, verdikləri bəyanatlar göstərir ki, bu səfər Azərbaycan-Almaniya əlaqələrində yeni əməkdaşlıq səhifəsi açacaq" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# “Cənab Prezidentin bu çağırışına hamı dəstək verməlidir”



“Prezidentin bu mesajı əlbəttə ki, çox önəmli bir mesajdır. Burada mütləq prezidentin bu çağırışının istehlakçı davranışında fərq yaratmasına gətirib çıxaran amilləri gözləyirik. İstehlakçı davranışı dəyişməsə, heç bir müsbət fikir öz həllini tapmaz. Məsələn, bir ailə başçısı və ya bir ölkənin rəhbəri öz ailəsi üçün, öz ölkəsi üçün müəyyən yaxşı fikirlərdə ola bilər. Əgər bu fikirlər ailə üzvləri tərəfindən dəstəklənməzsə və ya zəif dəstəklənərsə, onda bu sadəcə xəyal olaraq qalar”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin (AİD) sədri Eyyub Hüseynov deyib. Onun sözlərionə görə, cənab Prezidentin bu çağırışına hamı dəstək verməlidir: "Yalnız bərpa olunan enerjilərdən istifadə etmək və enerji resurslarımıza qənaət etmək deyil, eyni zamanda insanlarımızın, vətəndaşlarımızın davranışında da ciddi dəyişiklik olmalıdır ki, qənaət olunsun və işğaldan azad olunmuş ərazilərdə müəyyən enerji çatışmazlığının qarşısı alınsın. Bu, çox yaxşı bir çağırışdır və bütün xalq, bütün istehlakçılar bu çağırışa dəstək verib, özləri də qənaətcil olmalıdırlar.

Biz su ilə bağlı gələcəyin ən yaxşı günlərini yaşayırıq. Dünyada hidroenerji ilə bağlı böyük problemlər yaranacaq. Əlbəttə, azad olunmuş zonalarda hidroenerji imkanları nisbətən müsbətdir. Onu da qeyd edim ki, Azərbaycan su ilə təminat baxımından zəif ölkələrdən biri hesab olunur. Lakin azad olunmuş ərazilərdə hidroenerji mənbələri kifayət qədər yaxşıdır. Ona görə də cənab Prezident həmin bölgələrdə hidroenerji mənbələrindən rasional istifadə edilməsini ön plana çəkir. Yeni çaylar var, böyük hündürlükdən axan sular mövcuddur və s. Bunlardan səmərəli istifadə etmək məqsədi qarşıya qoyulub. Eyni zamanda, dünyanın çox az bir hissəsində rast gəlinən isti su mənbələri də bu bölgələrdə mövcuddur. Bu da olduqca əhəmiyyətli bir hidroenerji mənbəyidir. Cənab Prezident də bu kimi məsələləri nəzərə alır.

***Xeyrənsə Piriyeva***

# Diplomlu işsizlərin sayı niyə artır?




**Elçin Bayramlı**

**Son vaxtlarda təhsildə baş verən tənəzzül və yüz minlərlə ali təhsil diplomu olan işsiz problemi daha çox müzakirə olunur. Problem orta məktəblərdən başlayır və əmək bazarındakı diplomlu işsizlər ordusu ilə bitir. Orta məktəblərdə təhsil səviyyəsi son illərdə daha da aşağı düşüb və valideynlər ai təhsil vermək istədikləri uşaqlarını kurslara və repetitorlara yönəldib. Çünki bugünkü təhsil sistemi uşaqlara, cəmiyyətə heç nə vermir. Sadəcə ağır dərs proqramı ilə yüklənmiş uşaqlar var. Ali məktəblərə qəbul imtahanlarının nəticələrinə baxanda görürük ki, əksəriyyəti 5 ballıq sistem üzrə 2 qiymətlə (150-250 bal) daxil olur. Hələ bunlar özünə əmin olub imtahana girən abituriyentlərdir. Qalanlarının təhsil səviyyəsi 1-lə qiymətləndirilə bilər.**

Yəni 11 illik ağır proqramın nəticəsi budur. Ali məktəblərdə də eyni vəziyyətdir. Diplom alıb məzun olmuşlar öz sahəsində mütəxəssis kimi işləyə bimir. Bizim ali məktəblərin çoxu müasir tendensiyalardan geri qalır. Elmdə, texnologiyada dəyişmələrə, çağırışlara adekvat dəyişiklik yoxdur. Yeni peşələr, texnologiyaların öyrədilməsində ənənəvi üsullardan daha çox istifadə edirlər. Bu gün əmək bazarında da onların bir çoxuna tələbat yoxdur. Bizim ali məktəblərin buraxdığı məzun kütləsinin 99%-nə əslində əmək bazarında ehtiyac yoxdur. Birincisi əmək bazarı tutumu o qədər deyil. İkinci tərəfdən də o peşələrin aktuallığı azalıb.

Peşə təhsili sistemi Sovet dövründə çox yaxşı təşkil olunmuşdu. Böyük peşə məktəbləri şəbəkəsi var idi və böyük sənaye sistemi olduğuna görə, həmin məktəbləri qurtaran insanlara lazımi mütəxəssis kimi hər yerdə tələbat var idi, rahat iş tapırdılar. Amma bu gün işsizlik problemi var. Yenə də peşə məktəblərinə yönəlmə bizdə çox zəifdir. Halbuki, əmək bazarında peşə təhsili olanlara tələbat çoxdur, ali təhsillilərə isə tələbat azdır.

Bu gün ustaların 99%-nin peşə təhsili yoxdur. Eləcə də bir çox sahələrdə müəyyən ixtisaslı peşələr var ki, təhsil almamış kimi gəldi götürürlər. Bu da effekt vermir.

Normal halda, ölkənin əmək bazarında hansı peşələrə nə qədər tələbat olması araşdırılmalı, qəbul buna uyğun aparılmalıdır. Yoxsa plan yeri, pul qazanmaq xatirinə kütləvi şəkildə hamını ali təhsilə cəlb eləmək, yalançı diplomlar verib buraxdıqdan sonra onların həyatda heç bir iş tapa bilməməsi problem yaradır. Çəkilən əziyyətlər, təhsil sisteminə xərclənən vəsait batır, insanlar da heç bir şey əldə edə bilmirlər.

Bugünkü gənclər çalışmalıdırlar ki, peşə təhsili alsınlar, ixtisaslı kadr kimi özlərinə yer tutsunlar. Maddi gəlirlərə baxanda da görünür ki, bu gün ali təhsillilər ən aşağı maaş alanlardır. Müşahidələrimə əsasən deyə bilərəm ki, savadlı ustalar (məsələn, avtomobil, texniki avadanlıqların ustaları və s.) ayda 3-5 min, hətta bəzən 10 min manat, amma ali təhsillilər 500-1000 manat civarında qazanırlar.

Üstəlik bu müstəqil işdir. Yəni insanlar özlərini işlə təmin eləmiş olur, heç bir müəssisədən asılı olmur. Bu baxımdan müasir tendensiyalarla ayaqlaşmaq lazımdır.

Bazarın tələblərinə uyğun gənclər özlərinə peşə seçməlidirlər. Küyə düşüb “uşağımı oxudum”, “diplom alım” demək lazımsız bir mərhələdir. Bütün dünya ölkələrində bundan çoxdan imtina olunub. Böyük əksəriyyəti başqa ölkələrdə bazarın tələbinə uyğun peşə ixtisas mərkəzlərinə yönəldilir.

Gənclər yeni texnologiyalardan istifadə edərək özləri üçün kiçik biznes qura bilərlər. Burada ilkin kapital, ləvazimat çatışmazlığı kimi müəyyən problemlər var. Ona görə də dövlət özünüməşğulluq proqramının əhatə dairəsini və maliyyə imkanlarını dəfələrlə artırmalıdır ki, daha çox insan dövlətin yardımı ilə özünə bir iş, kiçik obyekt qura bilsin. Bundan əlavə, peşə təhsili təbliğ olunmalı, artırılmalıdır. Çoxlu yeni ixtisaslar yaranmalı və tələblər qoyulmalıdır ki, peşə təhsili olmayanlar usta kimi və yaxud texnik kimi işləməsinlər.

Müxtəlif sahələrdə peşə təhsilinə yiyələnə bilməyənlər qeyri-peşəkar xidmət göstərirlər. Bu gün bazarda əsas problemlərdən biri odur ki, peşəkar, təhsilli usta çox azdır. Məsələn, ustalar avtomobiləri pis vəziyyətə qoyur. Çünki heç bir təhsili yoxdur. Kiminsə əlinə baxıb öyrənib, amma texniki olaraq anlayışı yoxdur. Ona görə də, belə bir tələb qoyulsa ki ancaq peşəkar ixtisaslı kadrlar işləyə bilərlər onda bu sahəyə maraq artacaq.

Dövlət də ilk növbədə əmək yarmarkalarında onların işlə təminini təşkil etməlidir ki, insanlar görsün ki, hamı ali təhsili almaqla iş tapa bilmir. Amma uşaqlar peşə təhsilinə yönəldiləndə peşəkar mütəxəssis olur, işləyir, pul da qazanır, sonra özünə biznes də qurur.

Dünyanın bir çox böyük biznesmenlərinin, nüfuzlu şəxslərinin heç ali təhsili yoxdur. Bu onu göstərir ki, yalançı diplom xatirinə ali təhsil planını artırmağa ehtiyac yoxdur. Müasir çağırışlara, texnologiyaya uyğun kurslar, peşə məktəbləri kadrlar yetişdirilməlidir ki, həmin şəxslər əmək bazarının tələbinə uyğun təhsil alsın, peşə və bacarıqlara yiyələnsin. Hazırda əmək bazarı ilə təhsil sistemnin bir-birilə əlaqəsi yoxdur. Bir çox iş yerləri var ki savadlı kadrlar axtarır, amma o sahədə işçi tapa bilmir. Bu məsələlər kompleks şəkildə həllini tapmalıdır. Dövlət bu sahədə xüsusi proqram və islahatlar həyata keçirməlidir.

# "O kəsləri deyib gəlmişəm ki... "

## 119 il əvvəl "Molla Nəsrəddin" zamanının güzgüsünə çevrildi

***1906-cı ilin 7 aprel günü Azərbaycan ədəbi, ictimai mühitində mühüm hadisəyə çevrilən satirik jurnalın "Molla Nəsrəddin"in təməl daşı qoyuldu. Həyatını xalqına həsr edən Cəlil Məmmədquluzadə satirik ruhlu "Molla Nəsrəddin"lə sözünü deməyə tələsib, çox kəskin çıxışları ilə xalqın müdafiəçisinə çevrildi. Həcmi kiçik formatda olan "Molla Nəsrəddin"in çapı həftədə bir dəfə nəzərdə tutulmuşdur. Proqram səciyyəvi baş məqalədə isə Molla Nəsrəddin üzünü doğma xalqına tutub söyləyirdi: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım, o kəsləri deyib gəlmişəm ki, söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hökəmalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər".***

Ötən əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni mühitində əlamətdar hadisələrdən birinə çevrilən "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinin işıq üzü görməsi böyük əks-səda doğurdu. Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə 1906-cı il fevralın 21-də Tiflis qubernatoruna ərizə ilə müraciət edərək "Molla Nəsrəddin" adlı satirik-yumoristik jurnal çıxarmasına icazə istədi. Bu təşəbbüsü o zaman Qafqazda Rusiyanın digər yerlərində çıxan Azərbaycan, rus və tatar qəzetləri bəyəndi, bu barədə xəbərlər yaydılar. "İrşad", "Həyat", "Tərcüman", "Vozrojdeniye", "Kaspi", "Baku", "Novoye obozreniye", "Kavkazskoye utro", "Na povorote" qəzetləri "Molla Nəsrəddin"i çıxarmaq təşəbbüsü barədə oxuculara xəbər verdilər.

### "MOLLA NƏSRƏDDİN" BİR NEÇƏ MƏNİM ƏZİZ YOLDAŞLARIMIN QƏLƏMLƏRİNİN ƏSƏRİNİN MƏCMUƏSİDİR Kİ... "

"Molla Nəsrəddin" jurnalının yaradıcısı və redaktoru olan Cəlil Məmmədquluzadə bu nəşri ilə insanları qəflət yuxusundan oyatmağa çalışırdı. Mirzə Cəlil "Molla Nəsrəddin"də əsas sima, məsləhətçi və böyük yoldaş idi. Ədib özü bu barədə yazır: "Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil. "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam".

Jurnalın 7 aprel tarixli ilk sayında Mirzə Cəlilin "Molla Nəsrəddin" imzası ilə "Tiflis 7 aprel" sərlövhəli baş məqaləsi, "Məcmuəmizə müştəri olanlara nəsihət", "Molla Nəsrəddinin teleqramları", "Bilməli xəbərlər", "Dəllək", "Atalar sözü" və digər yazılar, həmçinin 4 müxtəlif karikatura və bir neçə elan dərc olundu. Zamanla üz-üzə dayanan "Molla Nəsrəddin" jurnalının ilk sayının işıq üzü görməsindən çox keçmədi ki, dövrün maarifpərvər, işıqlı ziyalıları onun ətrafına cəm olaraq, yaradıcılıq nümunələri ilə jurnalın fəallarına çevrildilər. Jurnalın nəşrinə qədər artıq qələminin, iti zəkasının hökmü ilə parlaq səhifələr yaradan Cəlil Məmmədquluzadə ədəbi mühitdə möhürünü vurmuş, hekayə, povest, alleqorik, eləcə də, dram əsərləri ilə Azərbaycanın yaşantılarını əks etdirən mövzularla çıxış etmiş, xalqın sevimlisinə çevrilən ziyalılardan biri olmuşdur. Məhəmmədhəsən əmilərin, novruzəlilərin, zeynəblərin həyat hekayəsini yazan Cəlil Məmmədquluzadəni baş verən hadisələr rahat yaşamağa qoymurdu. Həqiqətən də Cəlilin qəlbində vətən sevgisi nsuz idi. Hər zaman yaradıcılığında xalqın taleyini əks etdirməyə, insanların keçirdiyi psixoloji sarsıntıları, məişət problemlərini qabarıq bir şəkildə ifadə etməyə çalışan ziyalı dövrünün yüksək vəzifəli simalarını söz atəşinə tutmağa, qələminin gücü ilə onlara təsir etməyə çalışmışdır. Ədəbi fəaliyyətə 1880-cı illərdən başlayan Cəlil Məmmədquluzadə, özünəməxsus olan məktəb yaratmışdır. Bu məktəbin təməli Cəlil Məmmədquluzadənin əqidəsindən, məsləkindən yoğrulduğundan, döyüş meydanlarında möhkəm dayanaraq, sözünün gücünün nəyə qadir olduğunu sübuta yetirmişdi.

### DÜZÜ-DÜZ, ƏYRİNİ-ƏYRİ DEMƏYİ ÖZÜNƏ YOL SEÇDİ

İstismar dünyasına qarşı çıxış edən, ziyalıları əqli və qələmi ilə mübarizəyə çağıran Cəlil Məmmədquluzadə xalqın buxovlandığı bir cəmiyyətdən xilasını yalnız maariflənməkdə, öz hüquqlarının müdafiəçisinə çevrilməkdə görürdü. Azərbaycan ictimai mühitində böyük rol oynayan "Molla Nəsrəddin" ilk sayından başlayaraq mişdir. Sözünü kəsib, gözünü ağardan insanların hədə-qorxusunu nəzərə almadan, demokratiyanı boğan, mənfi hallarla cəmiyyətin inkişafına mane olan simasızları yazılarının qəhrəmanı seçərək, leksionumuzda eybəcərliyi ifşa edə biləcək tutarlı ifadələri onların ünvanına söyləyirdi.

Əlbəttə ki, satirik qələmdən qorxub, cilddən-cildə düşən şəxslər "Molla Nəsrəddin"in tənqid hədəfinə çevrildi. Bu jurnalı zaman özü yetişdirmişdir. "Molla Nəsrəddin"i zəmanə özü yaratdı" – deyə Cəlil Məmmədquluzadə yazırdı. Molla Nəsrəddin" məcmuəsi obrazlı desək, xalq ruhundan, folklorundan bəhrələnməklə öz fikrini oxuculara çox gözəl, məharətlə çatdırmaq bacarığına malik idi. Jurnalın redaktoru, sadəcə olaraq, söz demək xatirinə qələmə sarılmamışdır. Jurnalın qarşıya qoyduğu problemlərin bədii və publisistik həllində Cəlil Məmmədquluzadənin tutduğu yol, səpdiyi toxum öz bəhrəsini verirdi. Bu baxımdan ki, bu orqan milli şüurun oyanmasında və formalaşmasında müstəsna rol oynadı. Cəmiyyət üçün fəlakət gətirə biləcək şəxslərə kəskin nifrət və qəzəbin ifadə olunması, hər tipin öz xarakterində canlandırılması "Molla Nəsrəddin"çilərin əsas mövzularından idi.

Xalqın ziyalı sözünə, ziyalı fikrinə ehtiyacı yarandığı bir zamanda satirik qələmlə onun tələbatını ödəmək əsl hünər və vətənpərvərlik idi. Müsəlman dünyasını bürüyən geriliyi xalqın avamlığında görən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının çapının nə dərəcədə əhəmiyyətə malik olduğunu dərk edirdi. O, ziyalıları yalnız əqidəyə, məsləkə xidmət edib, tutduğu yolda qələmi silaha çevirərək, dövrün haqsızlıqlarını açıq-aşkar ifşa edərək, hakim qüvvələri qamçılamağa, öldürücü satira atəşinə tutmağa çağırırdı. Onların yaradıcılığının qayəsi insan ideologiyasını dəyişdirib, dövrün tələbləri səviyyəsində görmək idi. Belə ki, qarşıya qoyulan məqsəd, önəmli məsələ cəmiyyətdəki ziddiyyətlərin yaranma səbəbini göstərmək, xalqı ictimai fəaliyyətə səsləndirmək, qabaqcıl ideyalar əsasında cəmiyyəti mütərəqqi ideyalara qovuşdurmaq idi.




### "MOLLA NƏSRƏDDİN" MƏKTƏBİ

Qısa bir zaman məsafəsində, "Molla Nəsrəddin" məşhur satirik jurnal kimi tanındı. Görkəmli qələm sahiblərinin bir-biri ilə ideya-yaradıcılıq əlaqələri genişləndi. Cəlil Məmmədquluzadənin təbliğ etdiyi demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə isə nüfuz qazandırdı. Ziyalı gücünə malik olan, nurlu insanların əsərləri bu jurnalın səhifələrində yer alırdı. "Molla Nəsrəddin"çilər Azərbaycanda, eləcə də, Yaxın Şərqdə "Molla Nəsrəddin məktəbi" adlı qüdrətli mətbuat məktəbini yaratdılar. "Molla Nəsrəddin"dən sonra "Suri-İsrafil", "Azərbaycan", "Nəsimi-şimal" (İran), "Cəm" (Türkiyə), "Uklar", "Yəşən" (Tatarıstan), "Toqmaq" (Türkmənistan) və s. jurnallar çap olunaraq, beynəlxalq aləmdə mühüm rol oynamağa başladı.

Qeyd edək ki, jurnalın oxucularının da sayı durmadan artırdı. Rusiyadan başqa, hətta Asiya, Avropa və Amerikanın bir çox ölkələrində abunəçiləri var idi. Günü-gündən peşəkarlaşan və zamanın nəbzini tutmağı bacaran jurnal sərt mövqeyini və prinsipiallığını sona qədər qoruya bildi. Bütün əldə olunan uğurlara baxmayaraq, Cəlil Məmmədquluzadə irtica və qaragüruhçuların arasıkəsilməz tənqidinə sinə gərməli oldu. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, "Molla Nəsrəddin"in nəşrini dayandırırdı. 1920-ci ilin iyun ayında Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş, 1921-ci ildə orada "Molla Nəsrəddin"in 8 nömrəsini buraxdırmağa nail olmuşdur. 1922-ci ildə vətənə qayıdan Cəlil Məmmədquluzadə jurnalın nəşrini davam etdirmişdir. Cəlil Məmmədquluzadə böyük bir amalın daşıyıcısı olduğundan, mübarizəni davam etdirərək, daha qətiyyətli addımlar atmağa başlayır. Bu nurlu şəxs 1922-ci ildən 1930-cu illərə qədər "Molla Nəsrəddin"i mübariz orqanlardan birinə çevirmək üçün bir nəsli satirik jurnalistika sahəsində işləməyə hazırlaşdırır. Jurnal Yaxın və Orta Şərqdə, İranda və Türkiyədə ədəbi-ictimai fikrin inqilabi, demokratik hərəkatın güclənməsinə təsir göstərmişdir. "Molla Nəsrəddin" bir məktəb, bir nümunə oldu.

### "MOLLA NƏSRƏDDİN" RUHUNU, CƏLİL MƏMMƏDQULUZADƏ ƏNƏNƏLƏRİNİ YAŞADANLAR

Zaman ötdükcə, satirik ruhlu insanlar da yetişməkdə davam etdi. Hər onillikdə bu məqam özünü göstərirdi. "Molla Nəsrəddin" jurnalının davamçıları yetişdi. 1952-ci ildə "Kirpi" jurnalının nəşrə başlaması zaman və dövrün tələbatı baxımından reallaşmışdır. "Kirpi" jurnalı da dövrün neqativ hallarına qarşı barışmazlıq nümayiş etdirilmişdir. Jurnalda bürokratizmə və rüşvətxorluğa qarşı mübarizə güclü idi. Bu jurnaldan sonra "Kirpi"nin davamçıları "Şeytan", "Mozalan", "Karikatura", "Dəryaz" kimi satirik ruhlu qəzet və jurnallar nəşr olunmuşdur. Böyük bir təcrübədən bəhrələnən bu qəzet və jurnallar "Molla Nəsrəddin" ruhunu yaşatmağa, Cəlil Məmmədquluzadə ənənələrini yazılarında davam etdirməyə çalışmışdı.

Onu da vurğulayaq ki, jurnalın nəşri karikatura janrının inkişafında müstəsna rol oynamış və əsərlərin yaranmasına təkan vermişdir. Artıq karikaturaçı rəssamlar ordusu yaranmışdır. "Molla Nəsrəddin" jurnalının davamçısı "Kirpi" olduğu kimi, Əzim Əzimzadə məktəbinin davamçısı da Nəcəfqulu İsmayılov olmuşdur. Əzim Əzimzadə əməllərinə söykənən nəslin nümayəndələri, artıq bir cəmiyyət ətrafında sıx birləşmişdilər. Bu, Azərbaycan Karikaturaçı Cəmiyyətidir. Azərbaycan Karikaturaçı Cəmiyyəti bu gün Dünya Karikatura Təşkilatı Federasiyasının üzvüdür. Azərbaycan karikaturaçı rəssamlarının dünya karikaturaçılar ailəsində öz yeri olduğunu təsdiqləyir.

"Molla Nəsrəddin" jurnalının 119 yaşı tamam olur. Bu illər ərzində, Cəlil Məmmədquluzadənin yaratdığı məktəbin davamçıları yetişməkdədir. Çətin, təqiblərə məruz bir dövrdə cəsarətli addımlar atıb, dövrün mənzərəsini satirik ruhla qələmə almaq nə qədər çətin olsa da "Mola Nəsrəddin" amalına sadiq qaldı. Bu gün isə Azərbaycanda azad söz, azad mətbuat var, açıq cəmiyyətdə yaşayırıq. Senzuranın olmadı bir zamanda qələm sahibləri fikir və düşüncələrini sərbəst şəkildə qələmə alırlar. Bir əsrdən artıq yol gələn jurnalın ab-havası, onun yaradıcısı Cəlil Məmmədquluzadənin ruhu müasir nəsillə bahəm yaşayır. Onun yaratdığı məktəb, ənənə yaşayır, bizləri düzlüyə və əqidəmizin quluna çevrilməyə çağırır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Aİ Azərbaycanın enerji sahəsindəki çağırışlarına cavab verməzsə..."

***"Hal-hazırda Azərbaycan təxminən Avropa İttifaqının, Avropa Birliyinin qaza olan tələbatının 4 faizini ödəyir. Amma Avropa İttifaqı və Avropa komissarının da Azərbaycana səfəri zamanı təkidlər ondan ibarət oldu ki, Azərbaycan ən ağır ixracatı 2 dəfə artırsın. Amma dünyada yaşıl enerji, alternativ və bərpa olunan enerji hasilatı sürətlə inkişaf edir və bu sürətli inkişaf yaxın gələcəkdə qazıntı ehtiyatlarından, yəni karbo hidrogen ehtiyatlarından alınan enerjinin aktuallığını aşağı sala bilər. Yəni biz hasilatı iki dəfə artırmaq üçün həm də ixracat infrastrukturunu imkanlarını 2 dəfə artırmalıyıq. Bu isə investisiya tələb edir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Akif Nəsirli deyib.***



## Ekspert mühüm məqamları açıqladı



Akif Nəsirli sözlərinə belə davam edib: "Məsələn, biz həm hasilatı artırsaq, həm də investorlar cəlb etsək ,infrastrukturu genişləndirdik. Avropaya qaz ixracını 2,3 dəfə artırdıq ildə bu ixracatı 50-60 milyard kub metrə çatdırdıq. Növbəti illərin birində, məsələn 1-2 ildən sonra Avropa ölkələri bəyan etdilər ki, bizə bu qaz lazım deyil. Biz alternativ və bərpaedilən enerji mənbələri hesabına öz tələbatımızı ödəyirik. Bu halda Azərbaycan qazı müştərisiz qalacaq bu infrastruktura çəkilən xərci belə çıxara bilməyəcək.

Amma bu istiqamətdə tendensiyalar var. Məsələn, Almaniya 2024-cü ildə hasil etdiyi elektrik enerjisinin 68%-ni alternativ və bərpa olunan mənbələr hesabına əldə edibdi. Bu tendensiyanın digər Avropa ölkələrinə yayılması açılmazdır. Yəni Almaniyanin təcrübəsindən istifadə eliyib Fransada tutaq ki qaza olan tələbatını aşağı sala bilər, Avstriya da, digər Azərbaycanın qaz ixrac elədiyi ölkələr də bu təcrübədən yararlana bilər və qaza tələbatı sıfırlana bilər. O halda Azərbaycan qazı müştərisiz qalır və kəmərlərə çəkilən xətt Azərbaycanın üzərinə cərimə kimi gəlir. Bu səbəbdən də ölkə Prezidenti bəyan eliyir ki, siz bizə qrafik verin, zaman verin bizim ehtiyatlarımız var və öhdəlik götürün ki, tutaq ki 5- 10il qaza tələbat nə qədər minimuma ensə də biz sizdən qaz alacağıq bu həcmdə və bu qədər vaxtda. Bu halda biz o ili və həcmi hesablıyaraq o imprastrukturun yaradılması üçün investor cəlb eliyə bilərik. Və yaxud investisiyani bütövlükdə Avropa İttifaqının özü qoysun. Yəni həm hasilatın genişləndirilməsi, həm ixracat imprastrukturun genişləndirilməsini Avropa İttifaqının özü, Avropa komissiyasının özü təşkil etsin.

Azərbaycan öz təbii resurslarını, xüsusilə enerji resurslarını, müvafiq infrastruktur vasitəsilə reallaşdırmaq və ixrac etmək imkanlarına malikdir. Hazırda Azərbaycan bu resursların Avropa bazarına çatdırılması istiqamətində təşəbbüslər irəli sürür. Lakin Avropa İttifaqı Azərbaycanın irəli sürdüyü iki əsas şərtə həlelik rəsmi reaksiya verməyib. Bu səbəbdən Azərbaycan hökuməti və ölkə Prezidenti, dövlətin milli maraqlarını əsas tutaraq, bu məsələnin əhəmiyyətini beynəlxalq platformalarda qabardır və diqqətə çatdırır.

Əlavə olaraq qeyd olunmalıdır ki, əgər Avropa İttifaqı bu təkliflərə müsbət yanaşmasa belə, Azərbaycanın qaz ixracı üçün alternativ bazarları mövcuddur. Azərbaycan yaxın gələcəkdə sıxılmış (mayeləşdirilmiş) təbii qazın ixracına başlaya bilər. Bunun üçün müvafiq infrastrukturun yaradılması zəruridir. Lakin hazırda dünyada müşahidə olunan tendensiyalar bu istiqamətdə real perspektivlərin mövcud olduğunu göstərir. Qlobal miqyasda mayeləşdirilmiş qaz bazarına olan tələbat durmadan artır.

Əgər Avropa İttifaqı Azərbaycanın enerji sahəsindəki çağırışlarına cavab verməzsə, Azərbaycan sıxılmış təbii qazını yüksək maya dəyərinə baxmayaraq digər, tələbat olan ölkələrə ixrac edə bilər. Bu cür qazın daşınması həm quru, həm də su yolu ilə mümkündür ki, bu da Azərbaycanın enerji strategiyasında çevik və rəqabətqabiliyyətli olmasına şərait yaradır".

*Ayşən Vəli*

# "Bakcell"in dəstəyi ilə azərbaycanlı pilot nüfuzlu yarışda İnnovasiya və sürət lideri




***"Bakcell"in dəstəyi ilə azərbaycanlı pilot Gülhüseyn Abdullayev 4-6 aprel tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək "Gulf Radical Cup" yarışında iştirak edəcək.***

"Bakcell" brendi altında yarışacaq pilotun avtomobil nömrəsi artıq bəllidir – 55!

Qeyd edək ki, sözügedən yarış 2006-cı ildə əsası qoyulan "Gulf Sport Racing" motosport komandası tərəfindən təşkil olunur. Daha ətraflı məlumatı yarışın rəsmi saytına keçid edərək əldə etmək mümkündür.

### "Bakcell" haqqında

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# "Nar" müəllimlər üçün mobil rabitə təlimi keçib

***Sərfəli xidmətləri ilə yanaşı, sosial layihələrə də xüsusi önəm verən "Nar" Dövlət Peşə Agentliyi və "Sustainera Solutions" şirkətiylə birgə Peşə Təhsili üzrə Müəssisələrin müəllimləri üçün mobil rabitə avadanlıqlarına dair xüsusi təlim keçirib.İki gün davam edən bu təlim müəllimlərin müasir telekommunikasiya texnologiyalarıbarədə biliklərini artırmağa və bu sahədə praktiki bacarıqlar qazanmalarına imkan yaradıb. Təlimin ilk günündə iştirakçılar rabitə avadanlıqlarının texniki əsasları barədə nəzəri biliklər əldə ediblər. İkinci gün isə mobil operatorun əsas şəbəkə və radio şəbəkə avadanlıqlarıla vizual tanış olub,praktiki məşğələlər keçiblər. "Nar"ın texniki heyəti tərəfindən hazırlanan bu təlim proqramında 10 müəllim iştirak edib və onlar mobil rabitə sistemlərinin quruluşu, şəbəkə infrastrukturu və iş prinsipləri kimi mövzular üzrə biliklərə yiyələniblər.***

"Nar" bu təşəbbüs çərçivəsində ölkədə texniki peşə təhsilinin inkişafına töhfə verməyi və rabitə sahəsində çalışan mütəxəssislərin yetişdirilməsinə dəstək olmağı hədəfləyir. Mobil operatorun həyata keçirdiyi bütün sosial layihələr haqqında buradan məlumat əldə edə bilərsiniz. Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



# Fransa Avropa İttifaqından qovulur

***Dünya tarixində elə toplumlar olub ki, onların insanlığa və bəşəriyyətə qarşı törətdikləri qətliamlarını, vandal əməllərini dünya durduqca yaddaşlardan, tarixin səhifəsindən silmək mümkün olmayacaq. 30 il erməni işğalı zamanı Azərbaycanın ərazilərində törədilən vandalizmi, insan qətliamlarını təbii ki, unutmaq, yaddaşlardan silmək mümkün deyil. Bəşəriyyət mövcud olduqca, ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklər, insanları kütləvi şəkildə qətlə yetirmələri, tarixi abidələri, mədəniyyət nümunələrini dağıtmalarını, şəhər və kəndləri yer üzündən silmələrini heç bir demokratik düşüncəli xalq, bəşər övladı yaddan çıxarmayacaq.***

TƏHLİL



Eləcə də ermənilərin bacısı qismində çıxış edən fransızların müstəmləkə altında saxladıqları dövlətlərdə xalqlara qarşı həyata keçirdikləri soyqırımları, vandalizm aktlarını yaddaşlardan silmək mümkün olmayacaq. Bugünkü və gələcək nəsillər müstəmləkə altında saxladığı xalqlara qarşı həyata keçirdiyi qətlimlara görə Fransa dövlətini və hakimiyyətlərini daim ittiham edəcəklər. Hələ 15-ci əsrin sonu 16-cı əsrin əvvəlindən Fransa Afrikanı işğal edib. Həmin ərazilərin şimalında və cənubunda 20-dən çox ölkədə hakimiyyət qurub. Fransa Afrikanın 300-dən artıq müddətdə az qala 40 faizini əsarət altında saxlayıb. İşğala etiraz edənlər, haqları uğrunda mübarizə aparanlar qəddarlıqla öldürülüblər, həbsxanalara atılaraq işgəncələr məruz qoyulublar. Fransa hakimiyyəti insanları qul olaraq Avropada, Asiyada satışını təşkil edib, bölgədə yerli xalqlara məxsus təbii sərvətləri mənimsəyib. Mədənlərindən çıxan təbii sərvətdən əldə olunan maliyyəni Parisə daşıyır. Hər il Afrika dövlətlərinin təbii sərvətlərinin satışından Fransanın dövlət büdcəsinə 500 milyard dollara yaxın vəsait daxil olur. Fransa hələ də 15 Afrika ölkəsini müstəmləkəsi altında saxlayır

## Fransanı diz çökdürən Almaniya faşizmi

Almaniya faşizmi 1940-ci ilin iyunun 22-də bir neçə yüzillik müstəmləkə siyasəti aparmaqla özünü güclü, məğlubedilməz dövlət kimi təqdim etməyə çalışan Fransanı darmadağın edərək, Parisin dövlətçiliyinə son qoydu. Bundan sonra Fransa milli qüvvələri faşizminə qarşı mübarizəni Əlcəzairdə davam etdirməyə başladı. O zaman fransızlar əlcəzairlərə müstəqillik vədini vermişdilər. Lakin faşizmin süqutundan və Fransanın azadlığa qovuşmasından sonra fransız siyasətçiləri və hərbçiləri əlcəzairlərə verdikləri müstəqillik vədlərinə əməl etmədilər. Halbuki Əlcəzair xalqının dəstəyi və yardımı olmasa idi, Fransa bu gün də ABŞ-ın və ya Rusiyanın müstəmləkəsi altında idi. Əlcəzair xalqının böyük hörməti və yardımı qarşılığında Fransız cəlladları əlcəzairlərə nəinki müstəqillik verdilər, əksinə öz müstəmləkə siyasətlərini daha da dərinləşdirib, insanlara qarşı qətliam əməllərini genişləndirdilər. Faşizmin Avropadan sıxışdırılıb məhv edilməsindən az sonra Fransa ordusu 1945-ci ilin avqustun 2-dən 14-ə qədər olan zaman ərzində azadlıq mübarizəsi aparan Əlcəzairə Setif şəhərində 45 min insanı qətlə yetirdilər. Ümumilikdə o dövrdə Fransa ordusu Əlcəzair ərazində 100 minə qədər küçələrə çıxıb, dövlətçiliklərini qurmaq istəyən insanları öldürdülər. İnsan qatilləri bu vəhşi cinayət əməllərini 1962-1967-ci illərdə daha amansız formada davam etdirmişlər. 1961-ci il oktyabrın 17-də Fransa işğalına qarşı etiraz edən əlcəzairlilərin Parisdə keçirdiyi aksiyaya polisin atəş açması nəticəsində mitinqçilər Sena çayına atılmışdılar. Fransa polisi çaya düşən əlcəzairliləri suda qətlə yetirib. Qətliam nəticəsində 10 000 mindən çox insan Fransa polisinin açdığı atəş nəticəsində həyatını itirmişdir. Törədilən qətliam tarixə "Sena qətliamı" kimi düşüb. Ümumilikdə 100 illik işğal dövründə Fransa Əlcəzairdə 1,8 milyon insanı qətlə yetirib, yüzlərlə şəhəri, kənd və qəsəbəni vəhşicəsinə dağıdıb. Fransanın Əlcəzairdə törədilən vəhşiliklərin izləri hələ də silinməyib. Sübuta yetirilən fakt ondan ibarətdir ki, Fransa Əlcəzairdən həm də kimyəvi silahların poliqonu olaraq istifadə edilib. Nəticədə on minlərlə insan sağlamlığını itirib, şikəst olub. 1960-cı ildə Əlcəzairin cənubundakı səhrada ilk fransız atom bombası partladılıb. Fransanın "Le Monde" qəzetinin yazdığına görə, yerli əhalinin sağlamlığına və ətraf mühitin çirklənməsinə nəzarət etmək öhdəliyi olmadan azı 16 yeraltı və atmosfer partlayışı baş verib. "Franceinfo"nun məlumatına görə, 1960-66-cı illər ərzində Əlcəzairdə ümumilikdə 57 nüvə təcrübəsi və sınaqları həyata keçirilib. Əlcəzair 1962-ci ildə müstəqillik qazandıqdan sonra belə Fransa bu ölkədə nüvə sınaqlarını davam etdirib. O dərəcə insanlıq hissini itirən dövlətdir ki, fəal əlcəzairlilərin sümüklərini Parisə gətirərək muzeylərdə sərgisini təşkil edir. Muzeydə 150 ildən artıqdır nümayiş etdirilən 24 kəllə arasında Zaatç mühasirəsi zamanı müqavimətə rəhbərlik edən Şeyx Buzian və Çerif Bubeqla kimi tanınan Məhəmməd Lamzad bin Abdelmalekin kəllələri də var. 2020-ci il martın 3-də Fransa Prezidenti Emmanuel Makron 24 kəllə sümüyünün Əlcəzairə qaytarılmasına razılıq verib. 2017-ci ildə seçki kampaniyası zamanı Fransa Prezidenti Emmanuel Makron Əlcəzairə səfər edib və yerli "Echourouk News" telekanalına müsahibəsində Fransanın Əlcəzairə qarşı müstəmləkəçiliyinin həqiqətən insanlığa qarşı cinayət olduğunu etiraf edib.

## Fransa Ruandada 1 milyona yaxın Tutsini öldürüb

Fransanın bir sıra müstəmləkə altında saxladığı ərazilərdə törətdiyi soyqırımları, qətliamları tarix heç zaman unutmayacaq. Eləcə də tarixin ən böyük qətliamlarından olan Ruanda soyqırımı bəşəriyyətin qara ləkəsi olaraq qalacaq. Fransa Ruandada 1 milyona yaxın Tutsinin öldürülməsində iştirak edib. Fransa prezidenti E.Makron fakt və sübutlardan sonra Ruanda da baş verən qətliama görə yerli xalqdan üzr istəmişdir. 2021-ci ildə Ruandanın paytaxtı Kiqalidə 250 mindən çox tutsinin dəfn olunduğu soyqırımı abidəsinin qarşısında çıxış edən Fransa Prezidenti Emmanuel Makron Ruanda soyqırımına görə ölkəsinin məsuliyyət daşıdığını etiraf edib. Makronun Ruanda soyqırımı ilə bağlı etiraflarından sonra "Mediapart" saytında dərc olunmuş başqa bir xəbərdə qətliamın təşkilatçısı və "İnterpol"" tərəfindən axtarılan general Aloys Ntişiragabonun Fransada yaşaması və dəbdəbəli həyata tərzi sürməsi onu göstərir ki, Makron hakimiyyəti terrorçularla, insan qatilləri ilə hələ də əlaqəsini kəsmək fikrində deyil. Əgər belə olmasa idi, Fransa hüquq-mühafizə orqanları general Aloys Ntişiragabonu həbs edərək ədalət məhkəməsinə təhvil verdilər. Görünür E.Makron sözdə dediyi ədai əməli fəaliyyətində göstərmək istəmir. Lakin əminliklə demək olar ki, gec-tez Ruandada, Əlcəzairdə, Atlantik okeanında yerləşən Qvadelupada, Martinikada, Sen-Martində, Sen-Bartelemidə, Sent-Pyerdə, Mikelonda, Reunionda, Mayottedə, Fransız Polineziyasında, Yeni Kaledoniyada, Uollis və Futuna, Cənubi Amerikada isə Fransız Qvianasında törədilən insan qətliamlarına görə Fransanın hakim zümrəsi və onlara əlaltılıq edən general Aloys Ntişiragabo kimlər ədalət məhkəməsi qarşısına çıxarılaraq mühakimə olunacaq və layiq olduqları cəzaları alacaqlar. Hələlik isə görünən ondan ibarətdir ki, Fransa öz vəhşi, vandal siyasətini davam etdir. Hədəfi və məqsədi öz azadlıqları uğrunda mübarizə aparan insanları öldürmək, zindanlarda çürütməkdir. Yeni Kaledoniyada, Qvadelupa və Martinikada demək olar ki, hər gün azadlıqsevərlərlə Fransa polisi arasında qarşıdurmalar yaşanır. Fransız Polineziyası Fransanın 1966-1996-cı illər arasında keçirdiyi 200-ə yaxın nüvə sınağının təsirinə etiraz edir. Burada müstəqillik tərəfdarı Tavini Huiraatira Partiyası ötən il keçirilən seçkilərdə qalib gəlib. Polineziya administrasiyası adanın tam suverenliyə doğru irəliləməsi tərəfdarı olsa da, Fransa hökuməti müstəqillik danışıqlarında maraqlı deyil və hər cür zorakılıq metodlarından istifadə edərək, yerli əhalinin azadlıq mübarizəsini boğmağa çalışır. Korsika əhalisi də Fransanın işğalçılıq siyasətinə qarşı çıxırlar. Fransa prezidenti Makron Korsikaya muxtariyyət vəd edib və müxtəlif qruplara bununla bağlı ortaq mətn üzərində razılaşmaq üçün altı ay vaxt verib. Lakin 1 ilə yaxın vaxt keçməsinə baxmayaraq Makron hələ də vədinə əməl etmir. Yəni Makron yalan, populist və bu kimi əməllərinə sadiqlik nümayiş etdirir.

## Fransa həm də ekoloji terror həyata keçirir

Fransa müstəmləkə altında saxladığı ərazilərdə insanlığa qarşı cinayətlər törətməklə kifayətlənmir, həm də nüvə sınaqlarını həyata keçir, eyni zamanda ekoloji terror təşkil edir. Korski, Uqanda, Kamerun, Ruanda və digər ərazilərdə Fransanın törətdiyi ekoloji terrora qarşı etirazlar sərt və qətiyyətli xarakter alır. Uqandada ekofəallar növbəti dəfə Fransanın Afrikada davam edən müstəmləkə siyasətinə qarşı çıxaraq ölkədən ekoloji faciəyə görə kompensasiya tələb edirlər. Bir sıra qeyri-hökumət təşkilatları, o cümlədən "Torpağın Dostları" təşkilatının Fransa şöbəsi və Uqandada yerləşən Afrika Enerji İdarəetmə İnstitutu (AFIEGO) Uqandadan Tanzaniyaya uzanan neft kəmərinin inşası ilə əlaqədar olaraq Fransanın "TotalEnergies" şirkətinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət ediblər. İddianın predmetini infrastrukturun inşa edildiyi ərazidə torpaq və ərzaq hüququnun pozulması təşkil edir. Şirkətdən artıq altı ildir davam edən hüquq pozuntuları nəticəsində dəymiş zərərin geri ödənilməsi tələb olunur. Görünən ondan ibarətdir ki, Makron hakimiyyəti ekofəalların etirazlarını polis dəyənəyi, su şırnaqları ilə aradan qaldırmağa çalışırlar. Hətta bəzi eko fəalları həbs etməkdən çəkinməyən Fransa polisi bununla qəddar əməllərindən çəkinmədiyini nümayiş etdirir. Bu məsələ ötən ayın 29-da Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən "Kolonializm: Milli-dini kimliyin silinməsi" adlı beynəlxalq konfransında da müzakirə edilib və iştirakçılar Fransa hakimiyyətinin müstəmləkə altında saxladığı ərazilərdə əhalinin işğala və ekoloji terrora qarşı etirazlarının polis dəyənəyi və ordunun zorakılıqları ilə aradan qaldırmağa çalışmasına sərt münasibət bildiriblər. Konfransdan öncə təşkil edilən mətbuat konfransında Fransa və Niderland müstəmləkələrindən olan müstəqillik hərəkatlarının nümayəndələri, dekolonizasiya üzrə ekspertlər, reparasiya məsələləri ilə məşğul olan mütəxəssislər və insan hüquqları müdafiəçiləri iştirak ediblər. Tədbirdə Qvadelup, Fransız Qvianası, Kanaki (Yeni Kaledoniya), Korsika, Martinik, Reyunyon, Boneyr, Fransız Polinezyası, Mayot, eləcə də Valis və Futunadan azadlıq hərəkatının tanınmış simaları bir araya gəlib. Fransa hökuməti tərəfindən qeyri-qanuni həbs edilmiş kanaklı siyasi məhbusların ailə üzvlərinin mətbuat konfransına qatılması xüsusi diqqət çəkib. Onlar ailə üzvlərinin həbsinin siyasi motivli olduğunu vurğulayaraq, bunun Kanak xalqının azadlıq və öz müqəddəratını təyin etmə hüququnun qarşısının alınmasına qarşı yönəldiyini və Fransa hökumətinin müstəmləkəçi siyasətinə qarşı çıxdıqları üçün hədəfə alındığını bildiriblər. Siyasi məhbusların ailələri Fransa hökumətinin onların hüquqlarını kobud şəkildə pozduğunu, saxlanılma şəraitinin qeyri-insani olduğunu və hüquqi müdafiə imkanlarının məhdudlaşdırıldığını bildiriblər. Onlar beynəlxalq təşkilatları təzyiq göstərməyə və məhbusların dərhal azad edilməsinə çağırıblar. Tədbir iştirakçıları siyasi məhbusların müstəqillik hərəkatları üçün rəmzi əhəmiyyətini vurğulayaraq, bu məsələnin ədalətli və təcili həllinin vacibliyini qeyd ediblər.

**İLHAM ƏLİYEV**






# Toy adətlərimiz: Unudulmağa qoymayaq!






**IX YAZI**

Toy əsrlərdən bəri xalqımızın böyük dəyər verdiyi, təntənəli şəkildə qeyd etdiyi mərasim olub. Bunun müəyyən səbəbləri var. O səbəblərdən birincisi xalqımızın möhtəşəm ailə dəyərlərinin olmasıdır. Bu dəyərlər əsrlərin süzgəcindən süzülərək formalaşıb. Formalaşdıqca da müqəddəsləşib. Biz ailəni hər zaman müqəddəs hesab etmişik. Ailənin qurulması həyatımızın unudulmaz anı olub. Valideynlər hər zaman övlad toyu görməyi arzulayıb, bu toyu taleyin ən gözəl bəxşişi hesab ediblər.

Nikaha daxil olmağı, ailə qurmağı xalqımız vacib bir əməl kimi qəbul edib. Və bu, bütün ailələrdə təlqin olunub. O dərəcəyə çatdırılıb ki, mərhələli şəkildə həyata keçirilən, vaxtı çatanda vacib sayılan məsələlərdən biri olub. Xalqın folklorunda, yazılı və şifahi ədəbiyyatında ailə dəyərlərimizi özündə əks etdirən çoxsaylı məqamlar vardır. Bu dəyərlər isə toydan başlayır. Belə isə toylarımız barədə danışaq, görək nələri unutmuşuq, nələri yaşadırıq...

## Elçilik

Bugündən dünənə baxarkən toy adətlərinin bir çoxunun ixtisara salındığını, digərlərinin isə formasının dəyişdirildiyinin şahidi ola bilərik. Bunlar barədə söhbət edəcəyik. Hələlik toyaqədərki mərhələnin birincisindən danışaq. O mərhələ ki, hələ də yaşadılır. Bu, elçilikdir.

Deməli, oğlan və qız bir-birini sevir, vaxtı çatanda oğlan bu barədə anası ilə söhbət edir. Ana da bu barədə ataya danışır. Eyni zamanda qız da öz anasına ürəyini açır. Filankəslə ailə qurmaq istədiyini bildirir. Hər iki ailə araşdırmalara başlayır. Araşdırma deyəndə ki, bir soraqlaşırlar ki, görsünlər həmin ailə necə ailədir, onlarla bunların söz-söhbəti tutar, ya yox. Və yaxud da digər məsələlər var ki, onları öyrənəndən sonra toy baş tuta da bilir, tutmaya da.

Məsələn, soraqlaşma zamanı elə məsələlər ortaya çıxa bilir ki, qız anası qızına "biz



onlarla qohum ola bilmərik, çəkil otur yerində",- deyir. Elə məsələlər olur ki, oğlan anası oğluna " biz o qapıya gedə bilmərik, ay bala, bu söhbəti bağla", -deyir. Yüzlərlə bu cür mənzərənin şahidi olmuşuq. Lakin bundan sonra qohumluq yarana da bilir, yaranmaya da. Bu da gənclərin israrına bağlı olur. Və burada böyük nəsihəti dinləmək məqamını xüsusi olaraq vurğulamaq lazımdır, ona görə ki, sonrakı peşmançılığın da dəfələrlə şahidi olmuşuq.

Ailələrin razılığı olmayanda bəzən qız evi tərk edir və sevdiyi oğlanla gedir. Buna qızqaçırma deyirlər. Onlardan nikaha daxil olanlar da, olmayanlar da olur ki, olmayanlar gələcəkdə problemlərlə üz-üzə qalırlar. Belə ailələrdən uğurlusu da, uğursuzu da olur.

Qayıdaq söhbətimizə. Deməli, soraqlaşma müvəffəqiyyətlə bitəndən sonra ana yaxın qadın qohumları necə deyərlər, başına yığır və qızgilə tanışlığa gedir. Bu, həm də kiçik elçilik hesab olunur. Bu mərasimdə qız tərəfdən də yaxın qadın qohumlar iştirak edir. Söhbət əsnasında tərəflər bir-birilərini tanıyır, yaxınlaşırlar. Tanışlıqdan sonra böyük elçiliyin vaxtı təyin olunur.

Bu isə toyaqədərki ikinci mərhələ hesab olunur. Böyük elçiliyə kişilər qadınlarla birlikdə gedirlər. Burada əsas məqam həm kişi, həm də qadınlar arasında ağsaqqal və ağbirçəklərin mütləq olmasıdır. Yəni adətlərimizə görə xeyir işin təməlini ağsaqqal və ağbirçəklər qoymalı, xeyir-duanı onlar verməlidir. Beləliklə, 8-10, bəzənsə bundan bir qədər də çox sayda adam yığışır, qız evinə elçiliyə gedir. Bu dəfə də ailələr bir-biri ilə tanış olur, söhbətləşir. Daha sonra isə ağsaqqal söhbəti açır, qızı el qaydasına görə ata-anasından istəyir.

Razılıq olanda oğlan evi şirin çay istəyir. Süfrəyə şirin çay gətirilir. Nəlbəkiyə oğlan evi tərəfindən şirinlik olaraq pul qoyulur.

## Nişanqoyma mərasimi

Nişandan əvvəl bəzi regionlarda "bəlgə" adı verilən mərasim də keçirilir. Yəni elçilik zamanı oğlanın anası qıza yaylıq və üzük verir. Buna "bəlgə" deyirlər. "Bəlgə", yəni "nişan etmək", "adlandırmaq" kimi anlama gəlir. Əvvəllər "bəlgə"dən sonra toy yaxın vaxtda keçiriləcəkdirsə, nişan qoyulmurdu, yox, əgər bir il, il yarım sonra olacaqdırsa, nişan qoyulurdu.

Hazırda isə bu mərasim ailələrin imkanına görə öz aralarında razılaşma şəklində həyata keçirilir. Ailələr var ki," bəlgə" və yaxud evdə kiçik nişanqoyma ilə kifayətlənir. Ailələr də var ki, geniş nişan keçirir, hansı ki, iki ay sonra toy olacaq.

Nişanı qız tərəfi ev şəraitində və yaxud şadlıq evində keçirir. Nişanqoyma mərasiminə oğlan evi xonçalarla gəlir. Bu xonçalarda gəlin üçün zinyət, geyim, bəzək əşyaları, şəkərbura, paxlava, badambura olmaqla, müxtəlif şirniyyatlar olur. Şirniyyatlardan mərasimdəki bütün qonaqlara paylanır. Mərasim iştirakçıları həmin şirniyyatları evə-övladlarına aparır və inanca görə bu nişan şirniyyatlarından dadmaq onlara da belə xoş günün qismət olması anlamına gəlir.

Nişanqoyma toyaqədərki ən maraqlı, şənlikli mərasimlərdən biridir. Nişanlanmaq iki gəncin həyatına yenilik gətirir, onları çıxdıqları yeni bir yolda birləşdirir. Nişan üzüyü iki gəncin bir-birinə məhəbbətinin tərənnümü kimi rəmzi məna daşıyır. Həmin gündən qız oğlanın, oğlan qızın üzüyünü barmağında gəzdirməklə, artıq yeni bir həyata qədəm qoyduqlarını ətrafdakı insanlara bəyan edirlər.

## Nikah

Ta qədimdən nikah günü evlərimizdə təntənəli şəkildə qeyd olunub. Bunun üçün analarımız süfrə açıb, üzərinə min bir adda, ləzzətdə şirniyyatlar düzüb, yeməklər hazırlayıb. Bütün yaxınların, rəfiqə və dostların iştirak etdiyi nikah mərasimi süfrə başında, deyib-gülməklə, subaylara da bu günün nəsib olması diləyi ilə xatirələrə köçüb.

Nikahlanmağımızı təsdiq edən sənəd evimizin ən yuxarı hissəsində, etibarlı bir yerdə saxlanılıb. Hər zaman qorunub. Bütün bunlar isə yenə də ailəyə verdiyimiz dəyərdən, iki gəncin rəsmi şəkildə bir araya gəlməsinə müqəddəs yanaşmağımızdan qaynaqlanıb. Hər il nikah gününün qeyd olunması, bu münasibətlə evlilərin bir-birinə hədiyyələr bağışlaması bu müqəddəsliyin göstəricisidirsə, ailələrimizdə Gümüş, Qızıl, Brilyant toyların qeyd edilməsi isə bu xalqın nikaha verdiyi dəyərin bariz nümunəsidir.

*Ardı Səh. 11*

# Toy adətlərimiz: Unudulmağa qoymayaq!

Əvvəli-Səh-10

Lakin təəssüf ki, bu gün rəsmi nikaha girmədən qurulan çoxsaylı ailələr də var. Onlar yalnız dini qaydada, yəni kəbin kəsdirməklə evlənir. Lakin bunu anlamaq bir o qədər çətin deyil ki, rəsmi nikah olmadan birlikdə yaşamaq doğru olmayan hal- günahdır. Bu, həm də sonrakı illərdə ailələrin çoxsaylı problemlərlə üzləşməsi ilə nəticələnir. Odur ki, əziz valideynlər, rəsmi nikah olmadan qızlarınızı evdən çıxarmayın.

Nikah ailənin təməl daşıdır. Bu təməli sadəcə kəbinlə əvəzləşdirmək bünövrənin düzgün qoyulmaması deməkdir. Düşünürəm ki, kəbin ailəyə ailə statusu verə bilməz. Ən əsasını söyləyək, rəsmi nikahı olmayan ailələr uşaq dünyaya gələn zaman ona doğum haqqında şəhadətnamə alarkən çətinliklə üzləşir. Və heç istəmədiyimiz hal, boşanma vəziyyəti yarananda rəsmi nikahın olmaması hər iki tərəf üçün problem yaradır.

## Xınayaxdı idi, oldu ciyər axşamı

Bu gün "ciyər axşamı" deyilən mərasim vaxtilə xınayaxdı idi. Xınayaxdı toydan bir gün əvvəl keçirilərdi. İndiki kimi yeyib-içmək, israfçılıq yox idi xınayaxdılarda. Sadəcə şirniyyatlarla bəzədilmiş çay süfrəsi açılardı.

Axşam oğlan evində mağarda toy çalınanda bir dəstə gənc toydan çıxar, uzaq məsafəyə maşınla, yaxın məsafəyə piyada qız evinə xınayaxdıya gedərdilər. Oğlan evində isladılmış xına xonçada qız evinə aparılar, gəlinə xına yaxıldıqdan sonra oğlana göndərilərdi. Oğlan da çeçələ barmağını xınaya batırmaqla bu müqəddəs ittifaqa daxil olmağının sevincini yaşayardı.

Qız evinədək yolboyu haxıştalar deyilər, qız evinə çatanda isə bu haxıştalar qız və oğlan adamları arasında deyişmə formasına keçərdi. Hamı rəqs edər, sonra gəlinə xına qoyulardı. Xınayaxdı mərasimini bir qədər yaşlı qadın həyata keçirərdi. Xına qoyulduqca gəlinə xeyir-dua verər, xoşbəxtlik, səadət arzulayardı. Sonra isə süfrə başında şirniyyatlarla çay içilər, gənclər yenə də toya qayıdardılar.

Bu gözəl adətimiz indi unudulub, yerini ciyər axşamı alıb. Həm qız, həm də oğlan toyundan bir gün əvvəl ev yiyəsi qazan-qazan yemək hazırlayır. Bu yemələr xaş və ciyər qovurması olur. Sabah toyda iştirak edənlərin əksəriyyəti bu ciyər axşamında olur. Masa üzərinə yeməklə bərabər, spirtli içkilər düşülür. Yeyib içmək bitəndən sonra isə gəlinə əvvəlki xınayaxdılardan tamamilə fərqli xına qoyulur. Bu mərasim o qədər soyuq şəkildə keçirilir ki, hər dəfə ötən illəri xatırlamalı, "heyif o illərdən",- deməli olursan. Ciyər axşamı oğlan evindədirsə, bu, sadəcə yemək-içmək məclisi olur.

Maraqlıdır ki, sabahısı toy edən ev sahibi nə üçün bu qədər xərci də üzərinə götürür? Bu nə adətdir, haradan gəlib o gözəl, sadə xınayaxdıları əlimizdən aldı...

Bəzən isə qızlara valideynləri tərəfindən kafe və restoranlarda xınayaxdı keçirilir. Bu isə tamamilə israfçılıqdır. Çünki eynilə toyu xatırladır. Yəni bir gün sonra buna bənzər bir toy da keçirilir. Bütün bunlar isə adətlərimizi unutmağımızla yanaşı, israfçılıq və yorğunluqdan başqa bir şey deyil.

## Vağzalı

"Vağzalı" Azərbaycan toyunun rəmzidir. Əvvəllər gəlini aparmaq üçün qız evinə gələn oğlan adamları qızgilin qapısında, həyətində bir saata qədər rəqs edər, şənlənərdi. Elə ki, "Vağzalı" səsləndi, deməli, artıq gəlinin çıxması zamanı çatmışdır. Bu mərasim də ağsaqqalların nəzarəti ilə həyata keçirilirdi.

Bu musiqi səsləndə hər kəsi ötən illərə qonaq edər, ailə qurduğu anı xatırladar. Elə buna görə də "Vağzalı" səsləndə gözlərdən yaş axar. Çünki "Vağzalı" həm də bir qızın ata evini tərk etməsi musiqisi kimi qəbul olunub.

İllərdir, "Vağzalı"nı da unutduqlarımızın ardınca göndərmişik. İndi həm qızı, həm də oğlanı evdən çıxarmaq dəbi var. Bu zaman isə "Vağzalı"nın səsini çox az-az eşitmək olur.

Restoranlarda keçirilən toylar isə demək olar ki, "Vağzalı"nın qəniminə çevrilib. İndi əksər gənc restorana Avropa musiqiləri ilə girməyi üstün tutur. Heç nə anlamadığımız bu musiqilər "Vağzalı"mızı əlimizdən alıb. Hansı ki, uzaq məsafədən belə eşitdiyimiz









bu musiqi həmişə bizi riqqətə gətirib, saflığı, təmizliyi, müqəddəsliyi ehtiva edib. Bu musiqi özündə adət-ənənələrimizi, ağsaqqal nəsihətini, ağbirçək tövsiyəsini yaşadıb. Lakin çox təəssüf ki, bugünkü gənclər arasında bu musiqini sevənlərin sayı gündən-günə azalır.

## Toy

Toydan danışmaq istəyərkən adamın gözləri yaşarır. Çünki toylarımızda artıq toydan əsər-əlamət qalmayıb. Ötən illərlə müqayisədə toylar o qədər dəyişib ki, kənardan izləyənə bu, bir azərbaycanlı toyu təsirini bağışlaya bilmir.

Əvvəlki toylarda əsas məqsəd rəqs, demək-gülmək, şadyanalıq etmək idi. Yeyib-içmək ikinci məsələ idi. Hazırda isə yeyib-içmək, süfrələri min bir adda nemətlərlə doldurmaq, qonşudan daha yaxşı toy etmək yarışı üstünlük təşkil edir.

Əvvəlki toylarda bir-birinin ardınca səslənən xalq, bəstəkar mahnılarının yeri verilib dəqiqəbaşı yazılan əttökən mahnılara, diskotekalara. Gurultudan toyda nə oturmaq olur, nə də yanındakı insanın bir kəlməsini eşitmək. Sanki camaat bu toylara yemək-içmək, bir də guppultu səsini eşitməyə yığışır.

Baxarkən düşünürsən, hanı o eliçubuqlu, istəkləri yerinə yetirən, ardıcıl şəkildə hər kəsin rəqs etməsinə şərait yaradan toybəyiləri, maraqlı söhbətləri ilə hər kəsin diqqətini özünə çəkən tamadalar... Sazı sinəsində bütün məclisi heyran edən aşıqlar, xanəndələr, müğənnilər...

Fanaqrama ilə keçən toylarımız... Ağız deyəni qulaq eşitməyən toylarımız... Yallıların yerini saatlarla çəkən diskotekaların aldığı toylarımız...

Uşaqların yoxa çıxdığı toylarımız... Söhbət yaxın qohumlardan gedir. Hamı bilir ki, indiki toylarda evdən yalnız bir, ya iki nəfər iştirak edə bilər. Buna görə də restoranlarda keçirilən toylara uşaqlar aparılmır. Nəinki uşaqlar, çox vaxt yeniyetmə, gənclər də gedə bilmir. Çünki qonaq say ilədir, yer say ilədir. Bu səbəbdən də uşaqlar, yeniyetmə-gənclər adətlərimizdən kənarda qalır. Bu, nəinki toy adətlərinin unudulmasına, qohumluq əlaqələrinin pozulmasına gətirib çıxarır. Bu barədə isə hələlik narahat olan az sayda adam var.

Ah, toylarımız, səni bu gedişlə hara aparırlar?..

## Duvaqqapma, əlöpmə, qonaqlıq

Duvaqqapma toyun səhəri günü keçirilən mərasimdir. Bu mərasimdə də yemək, çay verilir. Əvvəllər həmin gün gəlinin cehizi gətirilər, mərasimdə iştirak edənlərə göstərilərdi. Gəlinin xonçaları açılar, camaata çay verilərdi.

Sonra isə gəlinlə tanış olmaq üçün o, camaat olan yerə dəvət olunar, ortalığa qoyulmuş stula əyləşər, balaca oğlanlardan biri onun duvağını başından çıxararaq qaçırıb həyat yoldaşına verər və əvəzində ondan şirinlik olaraq pul alardı.

Həm də duvaqqapma mərasimi xüsusi qaydada keçirilər, yaşlı qadınlardan biri şeirlə qıza xoşgəldin edər, qayınananın, qayınatanın, baldızın, qayının gəlinə atası-anası, bacı-qardaşı qədər yaxın, doğma olduğu bu şeirin misralarında öz əksini tapardı.

Bu adət demək olar ki, şəhər yerlərində tamamilə unudulub. Kəndlərdə isə az şəkildə yaşadılır. İndi cehiz gəlin köçməmiş evinə yığılır. Duvaqqapma isə demək olar ki, keçirilmir.

Toyun üçüncü günü gəlinin həyat yoldaşı ilə ata evinə gəlməsinə "əlöpmə" deyilərdi. Valideynlərdən halallıq almaq məqsədi daşıyan bu adətlə onların əli öpülərdi. Hazırda bu mərasim keçirilmir. Lakin yeni ailə quranları ailəsi ilə birlikdə qonaq çağırmaq ənənəsi hələ də davam edir. Etiraf edək ki, biz nədənsə qonaqlıqlara üstünlük verənlərik. Odur ki, bu adəti də qoruyub saxlaya bilmişik.

## Tamamilə unudulan toy adətlərimiz

Toy adətlərindən danışdıq: həm yaşadılanlardan, həm də forması dəyişdirilənlərdən. Lakin toy adətlərimiz var ki, onlar tamamilə unudulub. "Çörəküstü" mərasimi. Bu mərasim kənd yerlərində toy çörəyi bişiriləndə həyata keçirilirdi. Belə ki, qonşu, qohumlar təndirdə çörək bişirilən zaman şirniyyat xonçaları ilə çörəküstünə gələr, ev sahibinə gözaydınlığı verərdilər. Təndir başında toy çörəyindən kəsib yeyər, şirniyyatlarla çay içər, yeri gələndə çörəyin bişirilməsinə, daşınmasına kömək edərdilər.

Hazırda kəndlərimizdə təndir salıb ailəsi üçün çörək bişirən qadınlar çox az sayda qalıb. İllərdir ki, kənd camaatı çörək sexlərinə sifariş etməklə çörək tələbatını ödəyir. Özünə əziyyət verib təndir salmaq, qol çırmayıb xəmir hazırlamaq artıq ötən illərdə qalıb.

## "Parçabiçimi"

tamamilə unudulan mərasimlərdən biridir. Bu mərasim həm şəhər, həm də kənd yerlərində toydan bir-iki gün əvvəl qız evində keçirilərdi. Belə ki, oğlan evi qız üçün alınan geyim, bəzək, zinət əşyalarını gətirər, həyətdə qurulan mağarda və ya evdə keçirilən mərasimə dəvət olunanlara göstərərdi. Qız evi yemək verər, çay paylayar, qonaqlar isə nəlbəkiyə nəmər qoyardılar. Bu, sonrakı illərdə dəyişilmişdi. Qonaqlar nəməri artıq nəlbəkiyə deyil, dəftərə adlarını yazdıraraq verirdilər. Bu gün isə həmin mərasim heç bir kənd və şəhərdə qalmayıb.

## Qapı, maşın qabağı kəsmə

Uşaqlığımızın ən gözəl xatirəsi olan bu toy adətləri də tamamilə unudulub. Yadımdadır, uşaq vaxtı, eşidəndə ki, yaxınlıqdakı yoldan gəlin maşını keçəcək, qızlı-oğlanlı yığışıb uzun sim və ya ip tapırdıq, həmin yerdə yolu kəsib, gəlin maşınını gözləyirdik. Maşın karvanı gələndə ortalığa çıxıb pul verməsini sürücüdən istəyirdik. Sürücüdən pul alandan sonra yolu açıb maşınların keçməsinə icazə verirdik.

Sonralar bu adətlər unuduldu. Həm də pul verən də olmadı. Bizdən sonrakı uşaqlar danışırlar ki, yolu kəsirdik, lakin, sürücülər bizi aldadıb pul vermədən sürətlə ötüb keçirdilər. Burada adamın ağlamağı gəlir. Bir şirinlik gözləyən uşaqları aldatmaq nə deməkdir? Axı maşın qabağı kəsmək, yolu bağlamaq bizim qədim toy adətlərindən biri olub. Bunu nə haqla yoxa çıxardıq?..

Gəlin evdən çıxanda "qapıkəsmə" adlı bir toy adətimiz də var idi. Bu da indi yavaş-yavaş sıradan çıxır. Ya heç qapı kəsilmir, ya da qapı kəsənə şirinlik verilmir. Bu da adətlərin unudulması, yaddan çıxması deməkdir.

## Başlıq və süd pulu

Toy adətlərindən ən əsası başlıq pulu idi. Bu adət oğlan evinin adamlarının qız evinə toy danışıqlarına getdiyi zaman həyata keçirilirdi. Belə ki, oğlan atası qız atasından başlıq pulunun nə qədər olacağını soruşurdu. Lakin qız atası bu məbləğin nə qədər olacağını dilinə gətirmir, "hamı necə, biz də elə",- deyirdi. Başlıq pulu el arasında müəyyən olunurdu, hər kəs də qız evinə o qədər pul verirdi. Zaman-zaman pulun məbləği dəyişirdi, lakin bu toy adətinin bir vaxt tam sıradan çıxacağı heç kimin ağlına gəlmirdi.

Hazırda bu adət tamamilə unudulub. İstər kənd, istər şəhər olsun nə ataya başlıq pulu, nə də anaya süd pulu verən var. Hansı ki, illərlə qız evdən gəlin köçəndə qayınatası qızın anasına süd pulu verirdi. Düzdür, bunun məbləği o qiymətli südün dəyərindən dəfələrlə az olsa da, lakin rəmzi mənası toy adətlərimizin baş tacı idi.

## Kimdir müqəssir?..

Bu yazıda toyaqədərki və toydansonrakı adətlərin əksəriyyətindən söhbət açdıq. Yaşadılanlardan, unudulanlardan, tamamilə sıradan çıxanlardan danışdıq. Yaşadılanlar çox gözəldir, təqdirəlayiqdir. Unudulanlar, tamamilə sıradan çıxanlar isə bizim günahımızdır. Bəzən bu günahı zəmanəyə yükləməyi sevirik. Lakin zaman nə etsin ki? Bu məsələdə müqəssir özümüzük. Adətləri unuda-unuda illəri illərə verən biz...

Lakin bu qədər gözəl adətlərin sıradan çıxmasına təəssüflər olsun. Təəssüf ki, onları qoruyub saxlaya bilmədik. Bir zamanlar toylarımızdakı adətlərə həsədlə tamaşa edən Avropaya özümüzü oxşada-oxşada bu həsəd hissini aradan qaldırdıq. Bizim də toylarımız onlarınkı kimi sönükləşdi, solğunlaşdı. Çünki adət-ənənələr toyların rəngi, işığı, təmtərağı idi. Lakin biz bu təmtərağı tamamilə başqa şeylərdə görməyə başladıq. Çox təəssüf... Qarşıda daha çox təəssüf etmək üçün unudulmağa qoymayaq!

*Mətanət Məmmədova*

*“Hal-hazırda bütün dünya ölkələrini əsas düşündürən iki təhlükəsizlik məsələsi var. Bunlardan biri ərzaq təhlükəsizliyi, digəri enerji təhlükəsizliyidir”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elman Sadıqov deyib.*

# “Dayanıqlı təminatı təmin edə bilən ölkələrdən birincisi Azərbaycandır”




Məhz enerji ilə bağlı olan sammitdə cənab Prezident də doğru olaraq vurğulayıb ki, enerji təhlükəsizliyi heç vaxt olmadığı qədər hal-hazırda milli təhlükəsizliyin, ölkələrin təhlükəsizliyinin ayrılmaz bir hissəsidir: ”Çünki bu gün elə bir dövrə gəlib çatdıq ki, enerji olmadan, enerji təhlükəsizliyini təmin etmədən heç bir şeyin istehsalı, hətta ərzağın belə istehsalı çətin olur. Çünki enerji olduqda gübrələrin istehsalı məsələsi var, kənd təsərrüfatı müəssisələri, emal müəssisələri və s. Yeni artan əhali, dəyişən iqtisadi formasiyalar, 4-cü sənaye inqilabı texnologiyanın inkişafı və bunların əslində hamsı enerji təhlükəsizliyinə dayanır.



Nə üçün bu belədir? Ona görə ki, bütün dünyanın növbəti mərhələlərdə ən çox ehtiyac duyduğu amil məhz enerji, elektrik olacaq. Yəni 5 ildən, 10 ildən, 15 ildən sonra elektrik həyatımızın indikindən qat-qat artıq ayrılmaz hissəsi olacaq. Çünki indiyə qədər biz ənənəvi enerji resurslarından da çox istifadə edirdik, bu gün də edirik. Amma 10 ildən, 15 ildən sonra artıq avtomobillərin demək olar, əksəriyyəti, bəlkə də, hamsı elektrik ilə işləyəcək. Bəlkə, evlərimiz belə tam olaraq artıq elektrik ilə isinəcək. Günəş enerjisi, külək enerjisi həyatımızın bir parçasına çevriləcək. Avropa ölkələrini ən çox düşündürən məsələ gələcəkdə elektrik enerjisini hansı ölkələrdən idxal etməkdir. Çünki Avropanın alternativ enerji ilə bağlı sıxıntıları var. Çünki günəşli günlərin sayı çox deyil. Hər bir halda nə qədər də texnologiya inkişaf etmiş olsa belə, hər bir halda günəş enerjisi məsələsi və yaxud da külək enerjisi məsələsi aktual olaraq qalacaq.

Ona görə də, bu gün enerji təhlükəsizliyi və getdikcə enerjiyə artan tələbat və cənab Prezidentin orada demək istədiyi bir mesaj da var. Hal-hazırda enerji sahəsində də bir transformasiya gedir. Yəni ənənəvi enerjidən alternativ enerjiyə keçid dövrünü yaşayırıq. Bu keçid dövründə bəzi ölkələr ola bilər ki, enerjiyə daha çox ehtiyac duyacaqlar, xüsusilə, şimalda olan inkişaf etmiş ölkələr. Məsələn bəzi ölkələrdə hansılar ki, sırf alternativ enerjidən asılı vəziyyətdə qalıblar, onların özləri üçün də müəyyən problemlər, sıxıntılar formalaşa bilər. Məhz ona görədir ki, bu gün Azərbaycan Prezidenti ənənəvi enerjidən alternativ enerjiyə keçid və Azərbaycanı da təkcə alternativ enerji deyil, həm də ənənəvi enerji istehsalçısı və ixracatçısı olan ölkəyə çevirmək və belə bir ölkə imici formalaşdırmaq istəyir. Əsas strateji xətt budur. O cümlədən, məsələn, Avropa ölkələrinə alternativ enerjidən əldə olunan elektrik enerjisinin çatdırılması, ixrac olunması məsələsi gündəmdədir”.

”Enerji təhlükəsizliyi çox önəmlidir. Xüsusilə, biz Rusiya-Ukrayna müharibəsinin ilk dövrlərində Avropanın qaz ilə bağlı sıxıntılarını gördük və həmin sıxıntılar zamanı Azərbaycanın da öz üzərinə düşən öhdəlikləri yerinə yetirməsi, öz töhfəsini verməsinin şahidi olduq. Azərbaycan birdə onunla fərqlənir ki, bir çox ölkələrdən fərqli olaraq Azərbaycan son 30 ildə enerji sahəsində öz müqavilə öhdəliklərini qeyd-şərtsiz və kəsintisiz yerinə yetirən azsaylı ölkələrdəndir. Yəni Azərbaycan öz enerji sahəsində imzaladığı müqavilələr üzdə öhdəliklərini yerinə yetirərkən hər hansı siyasi məsələləri ortaya qoymur. Azərbaycan ilə Avropa ölkələrinin yaxından maraqlanması, müqavilələr imzalamağa çalışması, Balkan ölkələrinin, Şərqi Avropa ölkələrinin öz qaz tələblərinin məhz Avropa və məhz Azərbaycanın hesabına təmin etməyə çalışmaları təsadüfi deyil. Ona görə də, hər bir ölkə üçün, milli təhlükəsizlik üçün enerji təhlükəsizliyi önəmlidir və bu enerji təhlükəsizliyinin dayanıqlı və davamlı təminatı da bir o qədər önəmlidir. Bu dayanıqlı və davamlı təminatı təmin edə bilən ölkələrdən bəlkə də, birincisi Azərbaycandır. Ona görə də, bu məsələdə Azərbaycan həm də real və etibarlı tərəfdaş kimi öz mövqeyini qoruyub saxlayır.

Cənab Prezidentin önəmlə vurğuladığı məsələlərdən də biri odur ki, Azərbaycan təkcə neft və qaz ölkəsi kimi, neft və qaz ixracatçısı kimi tanınmaq istəmir. Azərbaycan bu keçid mərhələsində həm də özünü alternativ enerji istehsalçısı və ixracatçısı imici qazanan ölkə statusunda olmaq istəyir. Belə bir ölkə kimi görünmək istəyir. Çünki bu bizim, gələcək nəsillər üçün də çox önəmlidir. Öz öhdəliklərini davamlı və dayanıqlı olaraq ənənəvi enerji üzrə icra edə bilən Azərbaycan alternativ enerji üzrə də öz öhdəliklərini davamlı və dayanıqlı bir şəkildə icra etmək qüdrətinə malikdir” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# "Azərbaycanın xarici siyasətində prinsipləri həmişə çox aydın olub"

“Düşünürəm ki, İranla Azərbaycan münasibətləri artıq konstruktiv məcrada inkişaf etməkdədir. Azərbaycan səfirliyinin yeni ünvanda fəaliyyətə başlamasından sonra İranın yeni prezidenti Pezişkiyan, ümumiyyətlə İranla dünya ölkələri arasında, həmçinin Azərbaycan da daxil olmaqla region ölkələri arasında münasibətlərin inkişaf etdirilməsilə bağlı maraq ifadə edib. Ayrıca olaraq Azərbaycan dilindən sıx-sıx istifadə etməsi hesab edirəm ki, bunların hər biri ayrı-ayrılıqda pozitiv mənada düşündürən məqamlardır. İran prezidentinin müşavirinin Azərbaycan prezidenti ilə görüşü və müzakirə mühiti göstərir ki, Azərbaycanla İran arasında münasibətlərdə kifayət qədər inkişafa meyilli məqamlar mövcuddur”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Mirbəşiroğlu deyib.




Onun sözlərinə görə, nəzərə almaq lazımdır ki, bu iki ölkə çox mühüm bir regionda, böyük sərhədə malik olan qonşu ölkələrdir: “Birgə iştirak etdikləri çox mühüm strateji əhəmiyyətli layihələr mövcuddur. Nəzərə almaq lazımdır ki, Azərbaycanla İran arasında əhəmiyyətli nəqliyyat-kommunikasiya infrastrukturları qurulmaqdadır və Azərbaycan bu istiqamətdə xüsusi inkişaf edir. Rəşd-Astara dəmir yolu xətti, iki ölkə arasındakı əməkdaşlığın çox mühüm istiqamətini təşkil edir. Təbii ki, qonşu ölkələr arasında iqtisadi əməkdaşlığın şaxələndirilməsi, inkişaf etdirilməsi həm regional təhlükəsizlik baxımından, həm də hər iki ölkənin iqtisadi göstəricilərinin yüksəlməsi baxımından çox əhəmiyyətlidir”.

Politoloq qeyd edib ki, İran tərəfində də biz hesab edirik ki, bu istiqamətdə müsbət impulslar görməkdəyik: “Azərbaycanın xarici siyasətində prinsipləri həmişə çox aydın olub. Biz dünya dövlətlərinin hamısı ilə konstruktiv, bərabər hüquqluluq əsasında, birbirilərinin daxili işlərinə qarışmamaq prinsiplərinin gözlənilməsi ilə münasibətlərin və əməkdaşlığın qurulmasında hər zaman maraqlı olmuşuq. Hər zaman tərəfdaşlarımızla səmimi olmuşuq və təşəbbüslərlə çıxış etmişik. Sözümüzə uyğun addımlar atmışıq, mövqe sərgiləmişik. Bu baxımdan sözsüz ki, Azərbaycanla bağlı heç bir problem yoxdur. Əgər İranda daxil olmaqla qarşı tərəfin istəyi, təşəbbüskarlığı olacaqsa, düşünürəm ki, münasibətlər kifayət qədər rəvan inkişaf edəcəkdir.”

***Xeyrənsə Piriyeva***

# Füzuli ədəbi məktəbinin layiqli davamçısı

## *Dövlət başçısı "Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb*




Son illər Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamlar Azərbaycan dövlətinin inkişafına, onun sosial-iqtisadi bazasının yüksəlməsinə, regionların sosial-iqtisadi inkişafına, insanların rifah halının yüksəldilməsi istiqamətində və s. yönəlmişdir. Eyni zamanda, bu Sərəncamlar dövlətin təməlinin möhkəmlənməsinə, Azərbaycanın dünyaya inteqrasiya tempinin artmasına töhfələrini verir. Prezidentin imzaladığı Sərəncamlar sırasında Azərbaycanın milli-mənəvi dəyərlərinin keşiyində duran və onun inkişafına ömrünü həsr edən ziyalıların yubiley mərasimlərinin keçirilməsi, fəxri ad və mükafatların verilməsi də xüsusi yer tutur.

Azərbaycan Prezidenti İlham Əliyevin "Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında" imzaladığı Sərəncamı da məhz milli mədəniyyətimizə, ədəbiyyatımıza olan münasibətdir. Sərəncamda qeyd olunur ki, 2025-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, qüdrətli şair və böyük maarif xadimi Seyid Əzim Şirvaninin anadan olmasının 190 ili tamam olur.

Seyid Əzim Şirvani yaradıcılığı boyu həm Şərq poeziyasının çoxəsrlik ənənələrini yüksək sənətkarlıqla davam etdirmiş, həm də mühüm ictimai-siyasi dəyişikliklərin baş verdiyi bir şəraitdə Azərbaycan ədəbiyyatının yeni maarifçilik ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Dəyərli poetik nümunələrdən ibarət parlaq lirikasında mənəvi gözəlliyi tərənnüm edən şair, eyni zamanda, realist satiralarında dövrün aktual məsələlərinə kəskin münasibət bildirmiş, didaktik əsərlərində humanist ideyaların təbliğinə xüsusi diqqət yetirmişdir. Seyid Əzim Şirvani cəmiyyətin sosial-mədəni tərəqqisi uğrunda qabaqcıl ziyalıların apardığı mübarizənin daim ön sıralarında dayanmışdır. Onun xalqa xidmət naminə öz maarifçi düşüncələrini gerçəkləşdirmək arzusu ilə ana dilində açdığı yeni üsullu məktəb Azərbaycan təhsili tarixində dərin iz qoymuşdur.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə böyük Azərbaycan şairi Seyid Əzim Şirvaninin 190 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcəkdir.

Bütün həyatı boyu doğma vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan çalışaraq, zamanın qabaqcıl ideyalarından bəhrələnib Azərbaycan poeziyası tarixində parlaq səhifə açan Seyid Əzim Şirvani ədəbiyyat tariximizdə mühüm yer tutur. Azərbaycan ədəbiyyatında, eləcə də tarixində kifayət qədər belə ziyalılar nəsli yetişmiş, xalqa zəka və qələmləri ilə xidmət etmişlər. Xalqın milli təfəkkürünün oyanmasına və inkişafına çalışaraq məhz yaratdığı ədəbi nümunələr vasitəsilə dövrünün ab-havasını ədəbiyyata gətirib, bu yol ilə xalqın inkişafına kifayət qədər təsir göstərə bilmişdir. Belə bir ziyalının fəaliyyətinin dövlət tərəfindən qiymətləndirilməsi Azərbaycan xalqının öz açıq fikirli, nurlu vətənpərvərlərinə olan münasibətidir.

Azərbaycan klassik musiqi sənəti tarixində müstəsna möveyə malik olan böyük şair Seyid Əzim Şirvani poziyamıza müxtəlif janrlarda olan sənət nümunələrini təqdim edərək, klassik poeziyamıza yeni nəfəs gətirmişdir. Seyid Əzim Şirvani 19-cu əsr Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biri olub, Füzuli ədəbi məktəbinin ən layiqli davamçılarındandır.

### YENİ ÜSUL ÜZRƏ MƏKTƏBDƏN BƏHRƏLƏNƏNLƏR

1835-ci il iyul ayının 9-da Şamaxıda ruhani ailəsində anadan olan Seyid Əzim Şirvani kiçik yaşlarından etibarən, ərəb və fars dillərini öyrənmiş, Şamaxıda mədrəsədə oxuyub orta ruhani təhsili almışdır. 1856-cı ildə ali ruhani təhsili almaq həvəsi 21 yaşlı gənc Seyid Əzimi İraqa, əvvəl Nəcəf və Bağdada, sonra isə Suriyanın Şam şəhərinə aparır. Gənc şair İraqda oxuyarkən dünyəvi elmlərə də böyük maraq göstərir. Şamaxıya qayıtdıqdan sonra 1869-cu ildə orada yeni üsul üzrə məktəb açaraq ömrünün axırına qədər burada müəllimlik edir. Köhnə mollaxanalardan fərqli olaraq o, bu məktəbdə uşaqlara dini elmlərlə yanaşı, Azərbaycan və fars dillərini təlim edir, tarix, coğrafiya, hesab və s. fənlərdən ibtidai məlumat da verirdi. Təsadüfi deyil ki, Azərbaycanın görkəmli şairi Mirzə Ələkbər Sabir, məşhur yazıçı və pedaqoq Sultan Məcid Qənizadə və bir sıra başqa yazıçılar məhz onun məktəbində oxumuşlar.

Zəngin ədəbi yaradıcılığa malik olan Seyid Əzim Şirvaninin bədii irsi biri Azərbaycanca, digəri isə farsca iki böyük külliyyatdan ibarətdir.

### "ƏKİNÇİ" XALQA MÜRACİƏT YERİ İDİ

Şairin əsərləri içərisində müxtəlif Şərq mənbələrindən etdiyi tərcümələr, Sədi, Hafiz və Füzuli şeirlərinə yazdığı nəzirələr də vardır. Lakin bunlar şairin zəngin bədii irsi içərisində az yer tutur. Seyid Əzim Şirvani yaradıcılığının çox hissəsi lirik janrda yazılmış orijinal əsərlərdən ibarətdir ki, bunların da çoxu qəzəllərdir. Şairin qəzəllərində həyat sevgisi, nikbin əhval-ruhiyyə, dini etiqad xüsusi yer tutur. Onun aşiqanə qəzəlləri daha çoxdur. Müəllifin şeirə hərarət və can verən dərin lirikasını məhz bu qəzəllərdə görmək olur:

Gecə gördüm səni, ey afəti-dövran, yuxuda,  
Ki, elərdin mənə yüz lütfi-firavan yuxuda.

Seyid Əzim Şirvani yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-satirik şeirlərilə başlayır ki, artıq bu zamandan etibarən onun yaradıcılığında realizm üstünlük təşkil edir. Onun realist şeir yaradıcılığı sahəsinə keçməsində "Əkinçi" qəzetinin mühüm rolu olmuşdur. Çünki məhz "Əkinçi"nin təsirilə şair günün bir çox zəruri məsələləri ilə maraqlanır və yaradıcılığında yeni mövzulara keçir, müasir həyatın tələblərinə uyğun şeirlər yazır, Azərbaycanın ilk mətbu orqanında nəşr etdirir. Maarifçi şair üçün "Əkinçi" xalqa müraciət yeri idi. O, xalqı qəflət və cəhalət yuxusundan oyanmağa çağırır, Həsən bəy Zərdabinin xeyirxah, maarifçi təşəbbüslərini alqışlayır, onu bilikli bir müəllim və xeyirxah bir insan kimi qiymətləndirirdi. O, "Əkinçi"də çap etdirdiyi şeirlərilə müasirlərini bu qəzeti oxumağa, ona kömək etməyə çağırırdı:

Bəs "Əkinçi" cəlalımızdır bizim,  
Nasehi xoş məqalımızdır bizim.  
Səy edək, ey guruhi-niksifat,  
Etməsin ta bizim "Əkinçi" vəfat.

Təmsil və didaktik mahiyyət daşıyan mənzum hekayələr vardır ki, bunların da müəyyən bir hissəsi öz ideyaları etibarilə onun maarifçi şeirləri ilə birləşir. Doğruçuluq, mərdlik, dostluq, yoldaşlıqda mətanət, çalışqanlıq, əzilənlərə kömək, insanlarla yaxşı rəftar və s. gözəl və nəcib sifətlərin tərbiyələndirilməsi həmin öyüdlərin əsas məzmununu təşkil edir.

Seyyid Əzim Şirvaninin böyük islam mütəfəkkiri olması təkzibolunmaz faktdır. Şairin təkcə ruhani ailəsində anadan olmasını, islam dünyasının böyük mədəniyyət ocaqları və dini mərkəzləri olan Nəcəf, Bağdad və Şam şəhərlərində ali ruhani təhsili almasını göstərsək, dediklərimiz sübuta yetər. Hamımıza məlumdur ki, sovet dövründə Azərbaycan, demək olar ki, qədim Şərq mədəniyyətindən, adət-ənənələrindən təcrid olunmuş şəkildə yaşamağa məcbur edilib. Tarix göstərir ki, istənilən imperiya öz müstəmləkəsinə çevirmək istədiyi məmləkətlərin əhalisini əvvəlcə öz tarixi köklü mədəniyyətindən məhrum etməyə çalışıb. Bu baxımdan, rus imperiyasının da Qafqazda Qoca Şərqin tipik ölkəsi olan Azərbaycana münasibəti təbii idi. Heç sirr deyil ki, klassik Şərq poeziyasının ayrılmaz hissəsi olan klassik Azərbaycan poeziyası da orta əsr Şərq mədəniyyətinin təzahürü idi və klassik poeziyamız bu mədəniyyətin, demək olar ki, bütün detallarını tam özündə təcəssüm etdirirdi. Rus imperiyası da bu vacib amili daim diqqət mərkəzində saxlamış, tarixi mədəniyyətimizi öz mədəniyyəti vasitəsilə assimilyasiya etməyə çalışmış, onun aradan getməsi üçün bütün vasitələrdən istifadə etmişdir. Şirvani yaradıcılığı və fəaliyyəti ilə elmi islamı təbliğ edib. "Üçün" rədifli qəzəlində özünü göstərir:

Vaiz meyin məzəmmətin etməz səvab üçün,  
Dildə bəhanədir sözü zikri-şərab üçün.

Sovet təlimi burada göstərilən "vaiz" obrazını sırf dindar müsəlman obrazı kimi qələmə verməyə çalışır və Seyidin guya islam dininin "iç üzünü açıb göstərməsi"ni iddia edirdi. Seyid Əzim Şirvaninin ictimai mahiyyət daşıyan satiraları onun ümumi yaradıcılığında müstəsna mövqe tutur. Onu öz dövrünün böyük realist şairi kimi tanıdan "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazisi və xarrat", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim", "Alim oğul ilə avam ata" və s. satiralarıdır.

Öz zəngin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə qızıl səhifələr əlavə edən Seyid Əzim Şirvani 1888-ci il iyunun 1-də Şamaxıda vəfat edib.

***Nəzakət ƏLƏDDİNQIZI***



# "Texnologiya vasitəsilə insanların asudə vaxtları israf olunur"



***"Asudə vaxt və azadlıq məsələsi zamanla çox dəyişib. Bu da insanların həyatına həm müsbət, həm də mənfi təsirlər göstərir. İndiki zamanda azadlıq tendensiyası nə deməkdir? Texnologiya üzrə azadlıq məsələsinə yanaşsaq, xüsusilə bu gündə dünyanın hər yerində internet insanların asudə vaxtlarını dəyərləndirmək üçün böyük şəraitlər yaradır.***

Azərbaycan reallığında bu daha çox sosial şəbəkələrdir ki, insanlar öz azad vaxtlarında sosial şəbəkələrdən istifadə edirlər". Bu sözləri SİA-ya açıqlamasında şəxsi inkişaf üzrə kouç, beynəlxalq dərəcəli təlimçi İlahə Adil deyib.

Onun sözlərinə görə, əvvəllər insanlar evdən çıxardılar, fiziki tədbirlərdə iştirak edirdilər, indi isə onlayn internet sayəsində evdən çıxmadan öz işlərini həll etmək imkanları var: "Bu da asudə vaxt keçirməyin mümkünlüyünü onlara yaradır, hətta bəzən insanlara azadlıq hissini verə bilir. Sosial və iş həyatı arasındakı sərhədlər, əsasən də oflayn işləyən insanlar üçün asudə vaxt daha sərbəstdir. Həmçinin iş saatlarının elastik olması insanlar üçün öz vaxtlarının idarə olunmasında daha çox kömək edir. Lakin bu eyni zamanda işlə şəxsi həyatda sərhədin itələmisini, yəni heç bir zaman tam istirahət etməmək hissini yaradır.

İnsanlar öz maraq dairələrinə uyğun olaraq daha çox fərqli hobbilərlə məşğul ola bilirlər. Bununla yanaşı insanlar fiziki və ruhi sağlam qalmaq üçün idman, musiqi kimi fəaliyyətlərlə məşğul ola bilirlər. Azadlığın asudə vaxtının çoxluğunun pozitiv tərəfi insanların özlərini kəşf etməyidir. İnsanlar bu sayədə özlərini kəşf edir, maraqlarına uyğun yeni hobbilər tapa bilir. Sosial əlaqələr həmçinin insanların azad vaxtda bir-biri ilə əlaqələr qurmasına kömək edəcək. Ancaq bunun mənfi təsirləri də var. Mənfi təsirlər bunlardır ki, insanlar depressiyaya düşə bilir, tənhalıq hiss yaşaya bilirlər. Həmçinin çox asudə vaxt insanları sosial ətrafdan uzaqlaşdıra bilir. İnsanlar yalnız özlərini ekranlar vasitəsilə əlaqələndirə bilir. Bu da onları real, sosial əlaqələr qurma qabiliyyətini zəiflədə bilər. Texnologiya vasitəsilə insanların asudə vaxtları israf olunur. Bu da onların peşəkar həyatlarının səmərəsizliyinə yol aça bilir. Ümumiyyətl XXI əsrdə asudə vaxt prizması getdikcə çoxalacaq. Çünki həyatımıza daxil olan məişət əşyaları, yaxud digər əşyalar dolayısı yolla işlərimizi asanlaşdırır".

***Xeyrənsə Piriyeva***

***ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri Maykl Kurilla İsrailə gəlib və orada İranla bağlı operativ məsləhətləşmələr aparıb. Eyni zamanda, Pentaqon daha bir təyyarədaşıyan qrupunun Yaxın Şərqə köçürüldüyünü açıqlayıb. İsrail təhlükəsizlik aparatının fikrincə, Vaşinqtonla birbaşa danışıqlardan imtina edən Tehran regionda yerləşən Amerika hərbi obyektlərinə qabaqlayıcı zərbə endirə bilər. İranın hərbi rəhbərləri artıq açıq şəkildə bildirirlər ki, əllərində minlərlə hərbçinin olduğu çoxsaylı ABŞ bazaları var.***



# ABŞ-İran: təhdid yağışı altında

## *Pentaqon Yaxın Şərqdə qüvvələr toplayır*

Maykl Kurilla aprelin 1-də İsrail Müdafiə Qüvvələrinin (IDF) Baş Qərargah rəisi Eyal Zamir ilə danışıqlar aparıb. On saata yaxın davam edən əməliyyat məsləhətləşmələrində diqqət mərkəzində İran və onun müttəfiq qüvvələri olub. Qiymətləndirmələrinə Maariv tərəfindən istinad edilən İsrail təhlükəsizlik aparatı hesab edir ki, İran ABŞ-la getdikcə daha tez-tez təhdid mübadiləsi fonunda qabaqlayıcı "hücum hərəkətləri" edə bilər. Eyni zamanda, yəhudi dövləti hesab edir ki, İranın hücumları ilkin olaraq onun üzərinə deyil, Amerikanın Yaxın Şərqdəki bazalarına - İraq və ya Səudiyyə Ərəbistanına düşəcək. "Biz ayıq-sayıq olmalı və bu varianta hazır olmalıyıq", - deyə Maariv hərbi mənbədən sitat gətirir.

Açığı, amerikalıların özləri də bu risklərdən xəbərdardırlar. Aprelin 1-də Pentaqonun sözçüsü Sean Parnell Yaxın Şərqə "Karl Vinson" təyyarədaşıyan gəmisinin başçılıq etdiyi əlavə aviadaşıyıcı zərbə qrupunun göndərilməsinə qərar verildiyini açıqlayıb. O, Hind-Sakit okean regionundan oraya gələcək. Parnell gücləndirmənin "regional sabitliyi dəstəkləmək, təcavüzün qarşısını almaq və regional ticarət yollarını qorumaq" üçün lazım olduğunu söyləyib.

Ayrı-ayrılıqda Pentaqonun rəhbəri Pete Hegseth Yaxın Şərqə əlavə aviasiya qüvvələrinin yerləşdirilməsinə göstəriş verib, hərbi departament rəsmisi bildirib. Şon Parnell əlavə edib ki, "İran və ya onun müvəkkilləri Amerika personalını və regiondakı maraqlarını təhdid edərsə, Birləşmiş Ştatlar xalqımızı qorumaq üçün qəti addımlar atacaq".

İran yeni nüvə sazişi üzrə ABŞ ilə birbaşa danışıqlardan imtina edir və istənilən hərbi müdaxiləyə cavab verməklə hədələyir. İslam İnqilabı Keşikçiləri Korpusunun Hərbi-Hava Qüvvələrinin komandanı Əmir Əli Hacızadə martın 31-də iftar bayramı (Ramazan bayramı) münasibəti ilə çıxış edərək xatırladıb ki, Pentaqonun Yaxın Şərqdə on hərbi bazası var və burada təxminən 50 min hərbçi yerləşir. Bu məntəqələr İranın perimetri boyunca yerləşir və bu, onların əlçatmazlığı deməkdir", - deyə hərbi lider açıqlayıb. "Amerika hərbçiləri şüşəli evdə oturublar. İnsan şüşəli evdə oturanda başqalarına daş atmır", - deyə cənab Hacızadə qeyd edib.

Vaşinqtonun özünün Tehrana qarşı döyüşkən ritorika ilə çıxış etməsinə baxmayaraq, o, eyni ruhda cavab xarakterli bəyanatları alqışlamır, ABŞ Milli Təhlükəsizlik Şurasının kommunikasiyalar üzrə direktoru Ceyms Hewitt Washington Free Beacon ilə söhbətində deyib. O, izah edib ki, Donald Tramp administrasiyası İran rəhbərliyinin açıq olduğu dolayı dialoqda deyil, yeni nüvə sazişi üzrə İranla birbaşa məsləhətləşmələrdə israrlıdır. "Prezident Tehranla birbaşa diplomatik kanallara üstünlük verdiyini açıq şəkildə bildirdi. Yoxsa İran hakimiyyəti nüvə silahı əldə etmək üçün işlərini dayandırmasalar, ciddi nəticələrlə üzləşəcəklər", - cənab Hewitt vurğulayıb.

### Vasitəçilər və diplomatik səylər

Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) baş direktoru Rafael Qrossi bu ay İrana səfərə hazırlaşır. Səfərə hazırlıqla bağlı razılıq aprelin 1-də İslam Respublikasının xarici işlər naziri Abbas Əraqçi ilə baş tutan telefon danışığından sonra əldə olunub. Səfərin həyata keçirilməsi təşəbbüsü cənab Qrossidən gəlib. MAQATE direktoru sonuncu dəfə 2024-cü il noyabrın 15-16-da Natanz və Fordoda İranın əsas nüvə sənayesi obyektlərinin vəziyyətini yoxlamaq üçün İslam Respublikasına səfər edib. Çox güman ki, cənab Qrossi yeni səfəri zamanı İran rəsmilərini inandırmağa çalışacaq ki, hətta ABŞ şərtləri ilə belə danışıqlar silahlı qarşıdurmadan daha yaxşıdır.

Hələlik İran açıq şəkildə bildirir ki, hətta Donald Tramp administrasiyasının güclü ssenarisi belə onun kursuna heç bir şəkildə təsir etməyəcək. "Diplomatik əlaqə keçmişdə işləyib və indi də işləyə bilər," Cənab Araqçi sosial şəbəkədə X-də bildirib. "Ancaq hamıya aydın olmalıdır ki, tərifə görə "hərbi variant" deyilən bir şey yoxdur, "hərbi həll" var. İran xarici işlər naziri vurğulayıb ki, Yaxın Şərqdəki "fəlakətli uğursuzluqlar" Amerikanın əvvəlki administrasiyalarına 7 trilyon dollardan çox ziyan vurub. Bu, cənab Trampın prezident kimi ilk dövründə ABŞ-ın Yaxın Şərqə hərbi müdaxiləsinin mənasız olduğunu iddia etmək üçün istinad etdiyi rəqəmdir. İran ətrafındakı hazırkı vəziyyət də məhz bu yerə doğru gedir.

### Rusiya və İran arasında nüvə danışıqları

İran və Rusiya Federasiyası xarici işlər nazirlərinin müavinləri Məcid Taxt-Rəvançi və Sergey Ryabkov İranın nüvə proqramı üzrə danışıqlar prosesi ətrafında vəziyyəti müzakirə ediblər. Bu barədə çərşənbə günü İranın Moskvadakı səfirliyinin mətbuat xidməti məlumat yayıb. "Görüş zamanı Məcid Taxt-Rəvançi və Sergey Ryabkov İranın nüvə danışıqları ilə bağlı vəziyyətin inkişafını nəzərdən keçiriblər", - diplomatik missiyanın bəyanatında deyilir.

Mesajda vurğulanır ki, tərəflər ziddiyyətlərin aradan qaldırılmasına və İrana qarşı sanksiyaların ləğvinə səbəb olacaq birgə yanaşmaların hazırlanması üçün məsləhətləşmələri davam etdirmək barədə razılığa gəliblər. 2018-ci ildə Donald Trampın birinci hakimiyyəti dövründə ABŞ İranın nüvə sazişi kimi tanınan Birgə Hərtərəfli Fəaliyyət Planından çıxdı. İran və altı vasitəçi ölkə (Rusiya, ABŞ, Çin, Böyük Britaniya, Fransa və Almaniya) arasında 2015-ci ildə bağlanıb və Tehranın nüvə proqramını məhdudlaşdırması müqabilində ona qarşı sanksiyaların ləğvini nəzərdə tuturdu. Buna cavab olaraq İran texnoloji imkanlarını və yüksək zənginləşdirilmiş uran ehtiyatlarını əhəmiyyətli dərəcədə artırıb.

ABŞ prezidenti Donald Tramp mart ayında İranın ali dini lideri Əli Xamneyiyə göndərdiyi məktubda yeni nüvə sazişinin bağlanması üçün iki ay müddət qoyub. İslam Respublikası tezliklə birbaşa danışıqlardan imtina edən cavab məktubu göndərdi. Amerika prezidenti əməkdaşlıqdan imtina etdiyinə görə İranı "görünməmiş bombardmanlarla" hədələyib. İran müvafiq cavab verəcəyini vəd edib. Media Vaşinqtonun bu məsələdə vasitəçilik istəyi ilə Moskvaya müraciət etdiyini yazıb. Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bir gün əvvəl bildirib ki, Rusiya İranın nüvə proqramı üzrə konstruktiv dialoqun qurulmasında ABŞ və İrana yardım təklif etməyə hazırdır.

### Fransa XİN: İrana görə hərbi toqquşma riski...

ABŞ və İran arasında İslam Respublikasının nüvə proqramı ilə bağlı danışıqlar uğursuz olarsa, hərbi toqquşma təhlükəsi "faktiki olaraq qaçılmaz olacaq", Fransanın xarici işlər naziri Jan-Noel Barro bildirib. Onun sözlərinə görə, bu, regionda ciddi sabitliyin pozulmasına gətirib çıxaracaq. "Bizim prioritetimiz İranın nüvə proqramına uzunmüddətli və yoxlanıla bilən məhdudiyyətlər qoyacaq razılaşma əldə etməkdir", - XİN rəhbəri parlamentin Xarici Əlaqələr Komitəsinin iclasında.Barronun sözlərinə görə, Birgə Hərtərəfli Fəaliyyət Planının (JCPOA) müddətinin başa çatmasına cəmi bir neçə ay qaldığından, razılaşma əldə etmək üçün imkan pəncərəsi dardır. Nazir vurğulayıb ki, Fransa İranda nüvə silahının yaranmasına qarşıdır.

Xatırladaq ki, ABŞ prezidenti Donald Tramp mart ayında İranın ali dini lideri Əli Xamneyiyə göndərdiyi məktubda yeni nüvə sazişinin bağlanması üçün iki ay müddət qoyub. İslam Respublikası tezliklə birbaşa danışıqlardan imtina edən cavab məktubu göndərdi. Amerika prezidenti əməkdaşlıqdan imtina etdiyinə görə İranı "görünməmiş bombardmanlarla" hədələyib. İran müvafiq cavab verəcəyini vəd edib.

**V.VƏLİYEV**

***Sağlamlıq təbiətin insana bəxş etdiyi əvəzsiz dəyərdir. Fiziki və zehni vəziyyətimiz, iş qabiliyyətimiz və həyatdan həzz almaq qabiliyyətimiz ondan asılıdır. Ancaq daimi stress, hərəkətsizlik və pəhrizə diqqətsiz münasibət göstərməklə insan öz potensialını düşünmədən israf edir. Ekoloji vəziyyət, iqtisadi qeyri-sabitlik və sağlamlıq problemləri bu siyahıya əlavə olunduqda vəziyyət daha pis olur. Ümumdünya Sağlamlıq Günü bəşəriyyətin sağlamlıq problemlərinə yönəltmək üçün yaradılıb, fəal həyat tərzi, düzgün qidalanma, vaxtında diaqnoz və müalicənin zəruriliyindən bəhs etmək məqsədi daşıdığından təbliğat xarakteri daşıyır.***

Hər bir insanın sağlamlığı həmişə digər ehtiyaclardan üstün olub. Amma yaşayış şəraiti, maddi imkanlar hər zaman sağlamlığı qoruyub saxlamağa imkan vermir.

İsveçrədir, orta ömür uzunluğu 84,09 ildir. İsveçrə bütün dünyada öz vətəndaşlarının uzun və sağlam həyat üçün lazım olan hər təminatını həyata keçirməklə tanınır.

prioritet verir və sağlam davranışları təşviq etmək və xəstəliklərin qarşısını almaq üçün bir sıra ictimai səhiyyə təşəbbüsləri həyata keçirir. Bunlara siqaret əleyhinə kampaniyalar, peyvənd proqramları və sağlam qidalanma və fiziki aktivliyi təşviq edən kampaniyalar daxildir. Məsələn, Milli Peyvənd Proqramı yoluxucu xəstəliklərin qarşısını almaq üçün bütün uşaqlara və bir çox böyüklərə pulsuz vaksinlər təqdim edir. Avstraliya inkişaf etmiş ölkələr arasında ən yaxşı performans göstərən səhiyyə sisteminə malikdir, həm sağlamlıq nəticələrinə, həm də sağlamlıq bərabərliyinə görə liderdir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.***

# Xəstə dünyanın sağlamlıq ümidi: cəmi 10 ölkə...

## *1948-ci ildən Ümumdünya Səhiyyə Təşkilatının qərarı ilə 7 aprel Ümumdünya Sağlamlıq Günü kimi qeyd edilir*



Hər bir dövlətin səhiyyə strukturu millətin sağlamlığına əhəmiyyət verməlidir. Çünki xəstəhal cəmiyyət dövlət üçün də təhlükəlidir. Təəssüf ki, bu gün bir çox ölkələrdə əhaliyə keyfiyyətli tibbi xidmət göstərilmir. Hərbi münaqişələrin və texnogen fəlakətlərin qurbanlarına yetərsiz tibbi yardımın göstərilməsi məsələsi də günümüzdə aktualdır. Dərmanların, ixtisaslı kadrların çatışmazlığı istər-istəməz insanların sağlamlığına təsir edir.

1-ci və 2-ci dünya müharibələrindən zərər görmüş ölkələrin vətəndaşlarının ən çox korluq çəkdiyi məsələ də həkim və dərman yetməzliyi idi. Bu, bir çox ölkələrin həkimlərinin Ümumdünya Səhiyyə Təşkilatına birləşməsinə səbəb oldu. Bu birləşmənin rəsmi olaraq həyata keçirildiyi tədbir təşkilatın nizamnaməsinin qəbul edildiyi günə- 1948-ci il aprelin 7-nə təsadüf edir. Məhz bu gün Ümumdünya Sağlamlıq Gününün qeyd olunduğu tarixə çevrildi. Sovet İttifaqı elə həmin il ÜST-ə üzv oldu. İttifaqın dağılmasından sonra keçmiş üzv ölkələr ÜST-də öz üzvlüyünü təzələdi. Azərbaycan Respublikası 1992-ci il 2 oktyabr tarixində ÜST-ə üzv qəbul olunub.

Ümumdünya Səhiyyə Təşkilatının son araşdırmasına görə, dünya əhalisinin təxminən 80%-i psixi cəhətdən sağlam hesab olunur. Digər 10% və ya daha çox insan kifayət qədər ağır psixi pozğunluqlardan əziyyət çəkir. Qalan 10%-də isə yüngül ruhi xəstəliklər var. Dünya əhalisinin 95%-dən çoxunun müxtəlif sağlamlıq problemləri var, 3/1-dən çoxu isə beşdən çox xəstəlikdən əziyyət çəkir.

CEOWORLD biznes jurnalı 10 amil əsasında dünyanın ən sağlam ölkələrini sıralamaq üçün bir araşdırma aparıb. Araşdırma zamanı sağlam ömür uzunluğu, qan təzyiqi, qanda qlükoza, piylənmə, depressiya, xoşbəxtlik, alkoqol istifadəsi, tütündən istifadə, hərəkətsizlik kimi amillər nəzərə alınaraq dünyanın ən sağlam ölkələrini müəyyənləşdirməyə çalışıblar.

Dünyanın ən sağlam ölkəsi Norveç hesab edilir. Orta ömür uzunluğu 83,46 ildir. Norveç dünyanın ən xoşbəxt ölkələrindən biri, yaşamaq üçün ən yaxşı yerlərdən biri və həm səhiyyə, həm də psixi sağlamlıq baxımından ən yaxşı ölkələrdən biri adlandırılır. Avropanın ən yaşıl şəhəri olan Osloda isə demək olar ki xəstə insan yoxdur. İkinci ən sağlam ölkə Ölkənin hər yerində yaşıllıq sahələri var, insanlar təbiətlə təmasdadır. İsveçrənin ictimai səhiyyə sistemi qanuni tibbi sığortaya əsaslanır və bu o deməkdir ki, gəlir və ya iş statusundan asılı olmayaraq hər kəs əsas səhiyyə xidmətlərindən istifadə edə bilər. Üstəlik, İsveçrə dünyada adambaşına düşən tibb işçiləri nisbətinin ən yüksək göstəricilərindən birinə malikdir. Dünya Bankının məlumatına görə, hər 1000 nəfərə 4,4 həkim, 18,8 tibb bacısı düşür.

Finlandiyada orta ömür uzunluğu 82,08 ildir. Finlandiya həmçinin yaşamaq və işləmək üçün ən yaxşı ölkədir, ailə saxlamaq üçün dördüncü ən yaxşı ölkə hesab edilir və dünyada qadınlara ən çox dəyər verilən ölkələrdəndir. 10 ən sağlam ölkə siyahısında olan Finlandiya, rifah, səhiyyə xərcləri və yaşıl sahənin bolluğuna müsbət yanaşması sayəsində yaşanılacaq ən gözəl ölkələrdəndir. Finlər dünyada ən böyük yaşıl sahəyə sahib olmaqdan, eləcə də bir çox digər Avropa ölkələrindən fərqli olaraq yüksək hava keyfiyyətinə malik olmaqdan faydalanırlar.

Avstraliyada orta ömür uzunluğu: 84,07 ildir. Bu ölkəçox vaxt yaşamaq və işləmək üçün ən yaxşı ölkələrdən biri kimi yüksək qiymətləndirilir, ona görə də Avstraliya həyat tərzinin həm də dünyanın ən sağlam həyat tərzindən biri olması təəccüblü deyil. Avstraliya Hökuməti ictimai səhiyyəyə yüksək

İsveçdə orta ömür uzunluğu 83,42 ildir. İsveç artıq çoxdandır ki psixi sağlamlıq baxımından dünyanın ən yaxşı ölkələri siyahısına başçılıq edir və sağlamlıq xidmətlərinə böyük sərmayə qoyması sayəsində dünyanın ən xoşbəxt ölkələri siyahısında ikinci yerdədir. Buna görə də İsveçin ictimai səhiyyənin digər sahələrinə də böyük sərmayə qoyması təəccüblü deyil. İsveç 2022-ci ildə ÜDM-nin 10,67%-ni səhiyyəyə xərcləyərək, onu dünyada səhiyyəyə ən çox xərclənən 10 ölkə sırasına daxil edib. Gündəlik həyata gəldikdə, isveçlilər sağlam və aktiv həyat tərzi ilə tanınırlar. İsveç həyat tərzi yer üzündə sağlamlıq baxımından ən şüurlu həyat tərzindən biridir. İsveçdə həm ətraf mühitə, həm də əhalinin sağlamlığına müsbət təsir göstərən istixana qazları emissiyalarının azaldılması və bərpa olunan enerjinin təşviqi səyləri də daxil olmaqla güclü ekoloji siyasət var.

İslandiyada orta ömür uzunluğu 83,01 ildir. İslandiya 2024-cü ildə üçüncü yerdən geriləsə də, ən sağlam 10 ölkə arasında yerini qoruyub. Bu ölkə əcnəbilər üçün ikinci ən yaxşı yer, ailə saxlamaq üçün ən yaxşı ölkə və dünyanın ən təhlükəsiz ölkəsidir. İslandiya, həmçinin hərtərəfli peyvənd proqramı da daxil olmaqla, ictimai sağlamlığa böyük diqqət yetirir və siqaret və alkoqol istehlakını azaltmaq üçün böyük səylər göstərir. Balıq, tərəvəz və süd məhsulları ilə zəngin olan Nordic pəhrizinə riayət etməklə, islandiyalılar ürək xəstəliyi və xərçəng də daxil olmaqla xroniki xəstəliklər riskini azaldır.

Lüksemburqda orta ömür uzunluğu 82,36 ildir. Kiçik bir dövlət olsa da, bu Avropa ölkəsi həyat keyfiyyətinə görə çox öndədir. Bu ölkə həm də psixi sağlamlıq baxımından dünyanın ən yaxşı ölkələrindən biridir. Lüksemburqlular dünyanın ən yaxşı yaşıl sahələrindən bəzilərinə çıxış imkanına malikdirlər ki, bu da ölkəyə çoxlu davamlı kənd təsərrüfatı məhsulları və təmiz hava verir. Lüksemburqluların Avropanın ən fiziki cəhətdən aktiv insanları sırasında olması, əhalinin 79%-nin ən azı müəyyən vaxtlarda idmanla məşğul olması, 13%-nin isə mütəmadi olaraq idmanla məşğul olması ilə əlaqədardır.

İspaniyada orta ömür uzunluğu 83,80 ildir. Güclü səhiyyə sistemi, sağlam həyat tərzi və əlverişli ətraf mühit faktorları sayəsində İspaniya ən sağlam 10 ölkə siyahısındadır. İspaniyanın səhiyyə sistemi bütün vətəndaşların yüksək keyfiyyətli tibbi xidmət almaq hüququna malik olması ilə məşhurdur. Sistem vergilər hesabına maliyyələşir və həm ucuz, həm də bütün vətəndaşlar üçün əlçatan olan geniş çeşidli xidmətlər təklif edir. İspaniyada da adambaşına düşən həkimlərin sayı çoxdur və səhiyyə resurslarının ölkə daxilində yaxşı paylanması var. Ürək xəstəliyi, şəkərli diabet və xərçəng kimi xroniki xəstəliklər riskinin azalması ilə əlaqəli olan meyvə, tərəvəz, paxlalı bitkilər və zeytun yağının yüksək istehlakını özündə əks etdirən ispan yemək üsulu indi bütün dünyada sağlamlıq mütəxəssisləri tərəfindən yüksək riskli xəstələr üçün profilaktik tədbir kimi qəbul edilir.

Yaponiyada orta ömür uzunluğu: 84,85 ildir. Yer kürəsində gözlənilən ömür uzunluğu ən yüksək olan ölkə kimi (Honq-Konq istisna olmaqla) tanınır. Yaponların həyat tərzi haqqında deyiləcək çox şey var. Cəmi 4,9%-lik piylənmə nisbəti - hər hansı inkişaf etmiş ölkə arasında ən aşağı göstəricidir - ürək üçün sağlam balıq və tərəvəzlərə üstünlük verən pəhriz və ölkə daxilində yüksək keyfiyyətli səhiyyə xidmətinə çıxış imkanı ilə yaponlar keyfiyyətli həyat yaşayırlar. Yaponların bu qədər sağlam qalmasında qidalanma ilə yanaşı idman da böyük rol oynayır. Yaponiyada insanlar qocalıqda belə müntəzəm idmanla məşğul olurlar və bir çox insanlar işə gedərkən belə "radio gimnastikası" ilə məşğul olurlar. Bu amillərə əlavə olaraq, Yaponiya öz vətəndaşlarına əlçatan və münasib qiymətə tibbi sığorta təmin edən hərtərəfli səhiyyə sisteminə malikdir. Ölkədə adambaşına düşən çox sayda həkim və xəstəxana çarpayısı var və hökumət əhalinin sağlamlığına böyük sərmayə qoyur.

Böyük Britaniyada orta ömür uzunluğu 81,45 ildir. İlk dəfə olaraq 10 ən sağlam ölkə siyahısına daxil olan Böyük Britaniya yüksək reytinqə nail olub, çünki ölkə bir sıra mühüm sahələrdə, xüsusilə də havanın keyfiyyətində irəliləyişlər əldə edib, London da daxil olmaqla böyük şəhərlər benzinlə işləyən avtomobillərin sayını azaltmaq və çirklənməni azaltmaq üçün radikal addımlar atıb. Böyük Britaniyanın səhiyyə sistemi ardıcıl olaraq dünyanın ən yaxşıları arasında yer alır, bütün vətəndaşlar üçün universal tibbi sığorta, çoxlu sayda özəl xəstəxanalar təklif edir. Böyük Britaniyada səhiyyə xərcləri də qlobal orta göstərici ilə müqayisədə yüksəkdir və ÜDM-in 11,34%-ni təşkil edir. Məşhur idman ölkəsi olan britaniyalılar idmanla məşğul olmağı sevirlər. Britaniya mədəniyyəti idmana böyük önəm verir, bu da vətəndaşların futboldan tennisə, kriketdən skvoşa hər şeydən həzz almasını asanlaşdırır. Günün bütün saatlarında insanlarla dolu idman salonlarını və qaçışçılarla dolu küçələri görmək adi haldır.

İnsan sağlamlığının dəyəri heç nə ilə ölçülə bilməz, o qiymətsizdir. Sağlamlığımızı bizimlə bərabər qidalanmağımız, hərəkətimiz, ətraf aləm, mühit də qorumalıdır. Təbiətə atılan hər tullantı, ekologiyaya verilən hər zərər dönüb, dolaşıb yenə özümüzə zərər verəcək. Barı öz sağlamlığımız naminə təbiəti qorumağa dəyməzmi?

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
5 aprel
2025-ci il

# “Yenidən Avropa çempionu olmaq üçün mübarizə aparacam”



*Azərbaycan millisinin yunan-Roma güləşçisi Nihad Məmmədlinin (60 kq) SİA-ya müsahibəsini təqdim edirik:*

**- Slovakiyanın paytaxtı Bratislavada keçiriləcək güləş üzrə Avropa çempionatında mübarizə aparacaqsınız. Hazırlıqlarınız necə davam edir?**

- Hazırlıq yüksək səviyyədədir. Sonuncu məşq toplantısını demək olar ki, başa vuruq. Bakıda son üç məşqimiz qalıb. Bu toplanışlarda əsasən çəki salmaq üçün nəzərdə tutulub. Komanda olaraq yarışa yaxşı şəkildə hazırlaşdığımızı düşünürəm. Ümid edirəm ki, komandamızla birgə istədiyimiz nəticəni əldə edərik.

**- Avropa çempionatından gözləntiləriniz nələrdir?**

- Təbii ki, ən böyük gözləntim titulumu qoruyub-saxlamaqdır. Bunun üçündə əlimdən gələni edəcəm.

**- Rəqibləriniz barədə nələr deyə bilərsiz?**

- Hər birini analiz etmişəm. Rəqiblərimin güclü və zəif tərəflərini nəzərdən keçirmişəm. Bütün rəqiblərlə mübarizəyə hazıram.

**- Çempionluqla bağlı ümidləriniz nə dərəcədədir?**

- Ümidim çox böyükdür. Yenidən Avropa çempionu olmaq üçün mübarizə aparacam. Bayrağımızı dalğalandırıb, himnimizi beynəlxalq arenada səsləndirmək üçün əlimdən gələni edəcəm.

***Banuçiçək Hüseynli***

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Sağlamlığımız üçün meyvələri etibarlı mənbədən almaq daha doğrudur”



## DİYETOLOQ AÇIQLADI

“Hazırda bazarda satılan çiyələklər əsasən mövsümdən əvvəl yetişdirilən və ya xaricdən gətirilən məhsullardır”. Bu sözləri SİA-ya açıqlamasında diyetoloq Ceyhunə Yusifova deyib. Ceyhunə Yusifova sözlərinə belə davam edib: “Çiyələyin təbii yetişmə mövsümü adətən may-iyun aylarına təsadüf edir. Mövsümdən əvvəl bazara çıxarılan çiyələklər istixana şəraitində və ya xüsusi gübrə və stimulyatorlardan istifadə edilməklə yetişdirilir. Bu isə bəzi riskləri özü ilə gətirir.

Birincisi, belə məhsullarda tez yetişdirilmək üçün istifadə olunan maddələr meyvənin təbii yetişmə prosesinə təsir edir və tərkibində kimyəvi qalıqların qalması ehtimalını artırır. Pestisidlər və gübrə qalıqları sağlamlıq üçün təhlükə yarada bilər. Allergik fonu olan insanlarda, xüsusilə də uşaqlarda və hamilə qadınlarda bu tip məhsullar allergik reaksiyalar, səpgilər, həzm pozğunluğu və digər xoşagəlməz təsirlər yarada bilər.

İkincisi, qeyri-mövsümi çiyələklərdə dad və qida dəyəri də aşağı olur. Mövsümündə yetişən çiyələk təbii günəş işığında və torpaq şəraitində böyüyür, vitamin və antioksidantlarla daha zəngin olur. Ancaq süni şəraitdə yetişdirilən çiyələyin dad keyfiyyəti və tərkibi təbii məhsulla müqayisədə zəif ola bilər.

Bu səbəbdən məsləhət görürəm ki:

1. İstehlakçılar çiyələyi mümkün qədər mövsümündə alsınlar.
2. Alınan çiyələkləri mütləq şəkildə axar suyun altında yaxşıca yusunlar.
3. İmkan daxilində sirkəli suda (1 litr suya 1 yemək qaşığı sirkə) 5-10 dəqiqə saxlasınlar, bu, kimyəvi qalıqları azaltmağa kömək edəcək.
4. Hamilə qadınlar, süd verən analar və uşaqlar ümumiyyətlə istifadə etməsin.
5. Allergiyası olan şəxslər çiyələkdən uzaq dursun və ya çox diqqətli şəkildə istifadə etsinlər.

Unutmayaq ki, sağlamlığımız üçün meyvələri mövsümündə və etibarlı mənbədən almaq daha doğrudur”.

***Ayşən Vəli***

# Ata-uşaq münasibəti necə olmalıdır?

***“Uşaqkən atamızla qurduğumuz ünsiyyət və münasibət sonrakı həyatımıza mühüm şəkildə təsir edə bilər”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq, psixoterapevt Orxan Şəfizadə deyib.***

Onun sözlərinə görə, bu, psixologiyada geniş şəkildə sübut olunmuş və tədqiqatlarla təsdiqlənmiş bir mövzudur: ”Uşaqlıq dövründə atamızla qurduğumuz münasibət — diqqət, ünsiyyət, sevgi və qayğı dərəcəsi — sonrakı həyatımızın psixoloji təməlini formalaşdırır. Ata fiquru, uşağın özünə inamının, sərhəd hissinin, təhlükəsizlik duyğusunun və gələcəkdəki münasibət modelinin əsas formalaşdırıcılarından biridir.



Əgər bir uşaq atası tərəfindən dəstəklənmiş, dinlənmiş və hörmət görmüşsə, gələcəkdə daha sağlam özgüvənə, sosial münasibətlərə və emosional sabitliyə sahib ola bilər. Əksinə, soyuq, laqeyd və ya həddindən artıq sərt ata modeli, uşağın özünü dəyərsiz hiss etməsinə və ya yetkinlik dövründə münasibətlərdə çətinliklər yaşamasına səbəb ola bilər.

Ata-uşaq münasibəti necə olmalıdır?



Mükəmməl ata olmaq mümkün deyil, amma kifayət qədər yaxşı ata olmaq mümkündür. Bunun üçün:

Aktiv dinləmə: Uşağın hisslərini və fikirlərini dinləmək.

Şərtsiz sevgi: Uşağın davranışından asılı olmayaraq sevildiyini hiss etdirmək.

Sərhədlər və qaydalar: Aydın və anlayışla qoyulmuş sərhədlər uşağa təhlükəsizlik verir.

Müştərək zaman keçirmək: Fiziki mövcudluqla yanaşı emosional iştirak da vacibdir. Tənqid əvəzinə motivasiya: Uşağın inkişafı üçün yönəldici və təşviqedici yanaşma əsasdır.

Uşaq üçün ata bir dağ kimidir — güvən yeridir. Bu güvən uşağın gələcəkdəki şəxsiyyətini, münasibətlərini və hətta valideynlik tərzini formalaşdırır. Uşaqkən ata ilə qurulan sağlam bağ, gələcəkdə möhkəm psixoloji dayaq anlamına gəlir”.

***Söylü Ağazadə***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 2700